KHAZAR REVIEW

№ 359 Fevral 2017

# XƏZƏR XƏBƏR




AYLIQ DƏRGİ

ISSN 2218-2772
khazar-review.khazar.org


Azərbaycan Respublikası
Dövlət Miqrasiya Xidmətinin 10 illiyinə həsr edilmiş
"AZƏRBAYCANDA MİQRASİYA SİYASƏTİ:
NAİLİYYƏTLƏR VƏ İNKİŞAF
PERSPEKTİVLƏRİ"
mövzusunda
Elmi-praktik Konfrans
17 Fevral 2017
Saat 10:00




RBAYCANDA MİQRAS
İNKİŞAF
mövzusunda


N RESPUBLIKASI






# İÇİNDƏKİLƏR


**Məktəb direktorları ilə görüş-seminar . . . . 4**

**Universitet xəbərləri . . . . 6**

**Xəzər Universitetində "Təhsil və media" mövzusunda mətbuat konfransı . . . . 8**

**"Xəzər"in tələbəsi Avropa çempionu oldu . . . . 11**

**Xəzər Universitetində Dövlət Miqrasiya Xidmətinin 10 illiyinə həsr olunan elmi -praktik konfrans . . . . 12**

**Hamlet İsaxanlı: "Azərbaycanda tələbələrin sayı artırılmalıdır, amma universitetlər..." (*Ayyət Əhməd*) . . . . 16**

**Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin nümayəndələri ilə görüş . . . 25**

**"Qorxulu yerdən hədələdilər ki, o tələbəyə qiymət yaz, yazmadım"- Hamlet İsaxanlı gizlinləri açdı. (*Kəramət Böyükçöl*) . . . . 26**

**"Dünya" xəbərləri . . . . 30**

**Gənc ədəbiyyatşünaslar "İlin gənc alimi" diplomu ilə təltif olundular. . . . . 32**

**Sana İmran: "Azərbaycan Cənubi Qafqazın sürətlə inkişaf edən, təhlükəsiz müsəlman ölkəsidir". (*Məlahət Nəcəfova*). . . . . 36**

**Xocalı soyqırımı yad edildi . . . . 40**

***Эльмира Алиева.* Мечта, ставшая явью. . . . . 42**

***Teoman Ertuğrul Tulun.* Balkanlarda yeniden silahlı çatışma hayaleti dolaşıyor . . . . 50**

**Ankarada Azərbaycan çay dəsgahı . . . . 54**

***Cailey Rizzo.* The 25 Most Powerful Passports in the World Not All Passports Are Created Equally. . . . . 56**

**Molla Xəzər . . . . 62**

***Cəlal Ale-Əhməd.* Amerikalı ər . . . . 68**



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Sevda Balayeva

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Sevda Balayeva

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre

# MƏKTƏB DİREKTORLARI İLƏ GÖRÜŞ - SEMİNAR



Yanvarın 31-də Xəzər Universitetinin "Mərmər" zalında Bakı şəhəri üzrə məktəb direktorları ilə görüş-seminar keçirildi. Qeyd edək ki, onların bir qismi Xəzər Universitetinin "Potensial məktəb direktorları" kursunu bitirdikdən sonra direktor vəzifəsinə təyin olunmuş təhsil işçiləri idi.

Tədbirin aparıcısı - universitetin Təhsil fakültəsinin dekanı Elza Səmədova qonaqları salamladıqdan sonra "Potensial məktəb direktorları" kursunun keçmiş buraxılışlarından bəhs edən "Gəlin xatırlayaq" adlı slayd-şou nümayiş olundu.



Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbirdə çıxış edərək, məktəb-universitet əməkdaşlığından danışdı və öz təcrübələrini, xatirələrini bölüşdü. Sonra söz Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyevaya verildi. E. Səmədova Xəzər Universiteti haqqında ətraflı təqdimatla çıxış etdi.

Xəzər Universiteti Kamera orkestrinin çıxışından sonra tədbir maraqlı müzakirələrlə davam etdi.



## HOLDS MEETING - SEMINAR FOR SCHOOL DIRECTORS





On January 31, a meeting-seminar for former participants of the "Potential School Dierctors" project was held at Khazar University. Dr. Elza Samadova, Dean of the School of Education, opened the ceremony, and a short film entitled "My way to success" was shown.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made a speech and spoke about school-university cooperation, shared his experience and memories.

Mahabbat Valiyeva, Head of the Education Bureau of the city of Baku, took the floor. Her speech was followed by Elza Samadova's thorough presentation about Khazar University.

The event also included music with the participation of Khazar University's Chamber Orchestra. The meeting-seminar ended with discussions about school-university cooperation.



## "ELM ÜÇBUCAĞI" PROQRAMININ NÖVBƏTİ VERİLİŞİ

Fevralın 5-də İctimai TV-nin "Elm üçbucağı" proqramının növbəti verilişi efirə getdi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Elmin mahiyyəti" mövzusunda mühazirə oxudu. O, bilik və elm, obyektiv gerçəkliyin dərki problemi, biliklərin haradan əldə edilməsi, nəzəri və təcrübi elmlər, təbiət elmləri, humanitar və sosial elmlər kimi məsələlərə toxundu, elm tarixindən misallar gətirdi.

Sonda H.İsaxanlı verilişdə iştirak edən elm adamlarının və tələbələrin suallarına cavab verdi.

## "ESSENCE OF SCIENCE" LECTURE ON "TRIANGLE OF SCIENCE" SHOW

On February 5, the "Triangle of Science" program by Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was broadcast on Public TV. In his lecture entitled "The Essence of Science", he touched upon topics such as knowledge and science, objective comprehension of reality, sources of knowledge, theoretical and experimental sciences, natural science, humanities and social sciences and spoke about the history of science.

A questions and answers session followed.

## STATİSTİKA ŞURASININ ÜZVÜ HAMLET İSAXANLI BEYNƏLXALQ EKSPERTLƏR QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ

Fevralın 8-də Dövlət Statistika Komitəsində beynəlxalq ekspertlər qrupunun üzvləri Statistika Şurasının üzvləri ilə görüşdülər. Şuranın üzvü, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı həmin görüşdə iştirak etdi. O, müzakirələr zamanı qonaqların suallarını da cavablandırdı.

## STATİSTİCAL COUNCİL MEMBER HAMLET ISAXANLİ AT INTERNATİONAL EXPERTS' MEETİNG

On February 8, the State Statistical Committee of Azerbaijan held a meeting in which a group of international experts met with the members of the Statistical Board. As a member of the board, Prof. Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated in discussions and answer

## HAMLET ISAXANLI: "THE NUMBER OF STUDENTS IN AZERBAIJANI HIGHER EDUCATIONAL INSTITUTIONS SHOULD INCREASE, BUT UNIVERSITIES..."

On February 8, an interview by Prof. Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was published on the official website of the "Şərq". The interview includes Prof. Isaxanli's comments on the Ministry of Education's new proposal on the admission of students to higher educational institutions in Azerbaijan submitted to the government.

The full text of his interview can be found at the following link:

*http://www.sherg.az/site/id-"Azərbaycanda_tələbələrin_sayı_artırılmalıdır,__amma_universitetlər..."*

# XƏZƏR UNİVERSİTETİNİN YENİ UĞURU

2016-cı ilin noyabr-dekabr aylarında Avstraliyanın Pers şəhərində Eduniversal World Convention-un doqquzuncu toplantısı keçirilmişdir. Toplantıda 50 müxtəlif ölkədən 120 biznes fakültəsi iştirak edirdi. Onların arasında Harvard Biznes Fakültəsi, London Biznes Fakültəsi, Melburn Biznes Fakültəsi, Fudan Biznes Fakültəsi və digərləri təmsil olunurdu.

Toplantıda dünyanın ən yaxşı 1000 biznes fakültəsi müəyyənləşdirilmişdir. Onların arasında Azərbaycandan iki ali məktəbin fakültəsi yer almışdır. Azərbaycan üzrə birinci yeri Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi, ikinci yeri sonradan ləğv olunmuş Qafqaz Universitetinin müvafiq fakültəsi tutmuşdur.

# KHAZAR UNIVERSITY'S SUCCESS

In November-December 2016, the ninth edition of the Eduniversal World Convention held in Perth, Australia. More than 120 business schools from 50 countries including Harvard Business School, London Business School, Copenhagen Business School, Melbourne Business School and Fudan University School of Management etc. were represented in this global event.

154 Institutions in Azerbaijan Selected among the Top 1000 Best Business Schools. Khazar University's School of Economics and Management is the first on the list.

# "MAARİFÇİ" TƏLƏBƏ KREDİT FONDUNUN FƏALİYYƏTİ İLƏ ƏLAQƏDAR İCLASDA

Fevralın 8-də "Bakı Bulvar" otelində "Maarifçi" Tələbə Kredit Fondu və Təhsil Nazirliyi Dünya Bankı ilə birlikdə "Maarifçi" Tələbə Kredit Fondunun fəaliyyəti və "Azərbaycanda tələbə kreditləri proqramı" mövzusunda iclas keçirmişlər. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da bu iclasda iştirak etmişdir.

Tədbirdə bir neçə dövlət ali məktəbi təmsil olunurdu. Xəzər Universiteti bu tədbirdə iştirak edən yeganə özəl ali təhsil müəssisəsi idi.

# MEETING ABOUT "MAARIFCHI" STUDENT LOAN FUND ACTIVITIES

On February 8, "Maarifçi" Student Loan Fund held an information session at the Boulevard Hotel Baku, highlighting its own activities and the implementation plan of the student loan program. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, attended the event.

Several public universities were represented – Khazar was the only private university at the event.

# HAMLET ISAXANLI: "THE NUMBER OF STUDENTS IN AZERBAIJANI HIGHER EDUCATIONAL INSTITUTIONS SHOULD INCREASE, BUT UNIVERSITIES..."

On February 8, an interview by Prof. Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was published on the official website of the "Şərq". The interview includes Prof. Isaxanli's comments on the Ministry of Education's new proposal on the admission of students to higher educational institutions in Azerbaijan submitted to the government.

The full text of his interview can be found at the following link:

http://www.sherg.az/site/id-"Azərbaycanda_tələbələrin_sayı_artırılmalıdır,__amma_universitetlər..."

# XƏZƏR UNİVERSİTETİNDƏ "TƏHSİL VƏ MEDİA" MÖVZUSUNDA MƏTBUAT KONFRANSI



Fevralın 10-da Xəzər Universitetinin Mərmər zalında "Təhsil və media" mövzusunda mətbuat konfransı keçirildi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, media nümayəndələri və təhsil ekspertləri iştirak edirdilər.

Mətbuat konfransı Təhsil fakültəsinin dekanı, dosent Elza Səmədovanın Xəzər Universiteti haqqında slaydlarla müşayiət olunan ətraflı taqdimatı ilə başlandı. Sonra universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, təhsil və media münasibətlərindən, xüsusən ali təhsil müəssisələrinin fəaliyyətinin işıqlandırılması məsələlərindən geniş bəhs etdi. O, medianın bu sahədəki müsbət işi ilə yanaşı, qələmə alınan mövzuların dərindən öyrənilməməsi ilə əlaqədar ciddi çatışmazlıqların da olduğunu söylədi və konkret olaraq "Azərbaycan müəllimi" qəzetinin 20 yanvar 2017-ci il tarixli nömrəsində dərc olunmuş "Ali təhsil müəssisələrinin 2016-cı ildə impakt-faktorlu beynəlxalq jurnallarda dərc olunmuş elmi məqalələrinin statistikası haqqında məlumat" adlı yazını misal göstərərək, tövsiyələrini bildirdi.

H. İsaxanlı, həmçinin, qeyd etdi ki, "Təhsil və media" mövzusunun əhatəli olması və mühümlüyü nəzərə alınaraq, Xəzər Universitetində xarici ölkələrdən də ekspertlərin dəvəti ilə geniş konfrans keçirilə bilər. Eyni zamanda bildirdi ki, media mənsubları arzu etsələr, Xəzər Universitetində onlar üçün bu mövzuda treninqlər də təşkil etmək mümkündür.

İştirakçılardan professor Qulu Məhərrəmli, "Azərbaycan müəllimi" qəzetinin əməkdaşı Niyazi Rəhimov, təhsil ekspertləri - Məhərrəm Zülfüqarlı, Etibar Əliyev, Məlahət Mürşüdlü və universitetin Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri Vurğun Əyyub mövzu ətrafında çıxış etdilər, mülahizə və təkliflərini bildirdilər. Müzakirələrin aparılması ilə mətbuat konfransı işini başa çatdırdı.

*Moderator.az* xəbər saytı tədbirlə əlaqədar geniş yazı yayımlamışdır:

*http://www.moderator.az/news/168648.html*



# "EDUCATION AND MEDIA" CONFERENCE AT KHAZAR UNIVERSITY





On February 10, Khazar University held a press conference on "Education and Media". The confernce was attended by the university administration, staff members, media representatives and education experts.

Elza Samadova, Dean of the School of Education, opened the event with a thorough presentation. Prof. Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made a speech in which he spoke about the relationship between the media and higher educational institutions; stressed the media's role in highlighting higher educational institutions' activities. He also touched upon some existing problems – such as producing and publishing inaccurate and unsourced articles. He presented his suggestions and called attention to the possibility of organizing an international conference on "Education and Media".

Other speeches were made by Gulu Maharramli; Niyazi Rahimov, journalist from the "Azərbaycan müəllimi", education experts Maharram Zulfugarli, Etibar Aliyev, Malahat Murshudlu; Vurgun Eyyub, Head of the Department of Azerbaijani Language and Literature; they shared their opinions and suggestions.

The conference ended with discussions.

The Moderator.az news website ran a story about the event. The full text of the article is available at the following link:
*http://www.moderator.az/news/168648.html*





## PROFESSOR FUAT RƏSULOV "İQTİSADİ FORUM"DA

Fevralın 5-də *youtube*-də "İqtisadi forum" verilişinin qonaqlarından biri Xəzər Universitetinin professoru Fuat Rəsulov olmuşdur. İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Sabit Bağırovun müəllifi olduğu proqramın budəfəki buraxılışı "Lizing biznesinin xüsusiyyətləri. Problemlər və həlli yolları" mövzusuna həsr olunmuşdu.

Verilişi bu linklər vasitəsilə izləmək olar:

*http://eurasiadiary.com/az/news/economy/109790-lizing-biznesinin-xususiyyetleri-problemler-ve-helli-yollari*

*https://www.youtube.com/watch?v=W1NQrYj_grk*

## PROFESSOR FUAT RASULOV AS GUEST ON "ECONOMIC FORUM" PROGRAM

On February 5, Fuat Rasulov, Khazar University professor, was a guest on the "Economic Forum" program hosted by Sabit Bagirov, head of the Center for Economic and Political Studies. The program discussed characteristics of leasing companies, problems and their solutions.

The program is available at the following links:

*http://eurasiadiary.com/az/news/economy/109790-lizing-biznesinin-xususiyyetleri-problemler-ve-helli-yollari*

*https://www.youtube.com/watch?v=W1NQrYj_grk*

## PROFESSOR HAMLET İSAXANLI NİZAMİ RAYONUNDA İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ TOPLANTIDA

Fevralın 9-da Nizami Rayon İcra Hakimiyyətində rayonun 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirildi. Yığıncağı giriş sözü ilə Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov açaraq, toplantı iştirakçılarını salamladı və hesabat məruzəsi ilə çıxış etdi.

Məruzə ətrafında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, millət vəkilləri Flora Qasımova, Rufət Quliyev, Rasim Musabəyov, Sədaqət Vəliyeva və Prezident Administrasiyasının nümayəndəsi Tağı Tağıyev çıxış etdilər. Yığıncağın sonunda rayon ictimaiyyəti adından müraciət qəbul olundu.

Yığıncaqda Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də iştirak edirdi.

## BRITISH COUNCIL AZERBAIJAN - IN NAHAR MƏRASİMİNDƏ

Fevralın 13-də British Council Azərbaycan tərəfindən Naxçıvan restoranında nahar təşkil edildi. Naharda hazırda Azərbaycanda səfərdə olan Leicester Universitetinin rektoru professor Paul Boyle, Leicester Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin direktoru Michael Green, habelə Böyük Britaniyanın Bakıdakı Səfiri Dr. Carole Crofts və British Councilin Azərbaycan nümayəndəliyinin direktoru Elizabeth White iştirak edirdilər. Görüşə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanli da dəvət olunmuşdu.

Görüşdə Azərbaycan və Birləşmiş Krallıq əlaqələri, xüsusilə də təhsil və tədqiqat sahəsində əlaqələr geniş müzakirə olundu.

## BRITISH COUNCIL AZERBAIJAN HELD BUSINESS LUNCH

On February 13, British Council Azerbaijan held a business lunch event at the Nakhchivan restaurant. The event was attended by Professor Paul Boyle, president and vice chancellor of Leicester University; Michael Green, Director of Leicester University Strategic Partnerships Center; Dr. Carole Crofts, the ambassador of Great Britain to Azerbaijan; Elisabeth White, director of British Council Azerbaijan. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was among the guests of the event.

Azerbaijan-UK relations and co-operation between Azerbaijani higher educational institutions and UK universities were discussed at the event.

# "XƏZƏR"İN TƏLƏBƏSİ AVROPA ÇEMPİONU OLDU

Fevralın 17-24-də Polşanın Lutsk şəhərində sanda idman növü üzrə Avropa kuboku uğrunda yarışlar keçirilmişdir. Humanitar və sosial elmlər fakültəsinin üçüncü kurs tələbəsi Firudin Həsənov (tərcümə ixtisası) həmin yarışlarda iştirak edərək, öz çəki dərəcəsində (85 kq) turnirin qalibi olmuşdur. Qeyd edək ki, bu, Firudinin növbəti qələbəsidir. O, beş dəfə Azərbaycan çempionu olunmuş, 2013-cü ildə Bolqarıstanın Sofiya şəhərində keçirilmiş beynəlxalq turnirdə Avropa çempionu, 2015-ci ildə Bakıda təşkil olinmuş yarışlarda Avrasiya çempionu titullarını qazanmış, 2016-cı ildə Ukraynanın Xarkov şəhərində keçirilmiş dünya çempionatında ikinci yeri tutmuşdur.

On yeddi ölkə idmançılarının qatıldığı Lutsk turnirində Azərbaycanı Firudindən başqa daha doqquz idmançı təmsil etmişdir. Onlar da vətənə qələbə ilə qayıtmışlar: altı idmançımız öz çəki dərəcələrində Avropa kubokunu qazanmış, üç idmançımız ikinci yeri tutmuşdur.

Qalibləri təbrik edirik.




# KHAZAR UNIVERSITY STUDENT WON EUROPEAN CHAMPIONSHIP

On February 17-24, a European Sanshou Tournament was held in Lutsk, Poland. Firudin Hasanov, third-year student of Khazar University's School of Humanities and Social Sciences majoring in translation studies, took first place and earned a gold medal in the event (85 kg).

We note that Firudin Hasanov is a winner of several international championships. He has been the Azerbaijani champion of his category 6 times and has won a gold medal in the 2013 European Championship in Bulgaria and in the 2015 tournament in Baku; and a silver medal in the 2016 adult world kickboxing championship in Kharkov.

Athletes from 17 countries participated in the Lutsk tournament. In addition to Firudin, nine athletes from Azerbaijan participated in the event. They have won a total of 9 medals in their weight classes, 6 gold and 3 silver.



# XƏZƏR UNİVERSİTETİNDƏ DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti və Xəzər Universitetinin təşkilatçılığı ilə 2017-ci il fevralın 17-də universitetin Neftçilər kampusunun Mərmər salonunda Dövlət Miqrasiya Xidmətinin 10 illiyi münasibətilə "Azərbaycanda miqrasiya siyasəti: nailiyyətlər və inkişaf perspektivləri" mövzusunda elmi-praktik konfrans keçirildi.

Tədbirdə Xəzər Universitetinin, Dövlət Miqrasiya Xidmətinin (DMX), dövlət qurumlarının, ölkədə fəaliyyət göstərən beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələri, Milli Elmlər Akademiyasının, ali təhsil müəssisələrinin elmi əməkdaşları və DMX tərəfindən dəvət olunmuş xarici ekspertlər iştirak edirdilər.

Konfrans DMX-nin keçdiyi inkişaf yolunu əks etdirən qısametrajlı filmin nümayişi ilə başlandı. Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı konfransı açaraq, müzakirə olunan mövzunun mühümlüyünü və əhəmiyyətini nəzərə çatdırdı. O, həmçinin, iştirakçılara Xəzər Universiteti haqqında da qısa məlumat verdi.

DMX rəisinin müavini Pərviz Musayev çıxışında xidmətin yaranma tarixi, fəaliyyət istiqamətləri, 10 il ərzində əldə edilən uğurlar və nailiyyətlər barədə konfrans iştirakçılarını ətraflı məlumatlandırdı.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Azərbaycandakı nümayəndəsi Furio de Angeles, Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprak çıxış edərək, miqrasiya probleminin mühüm cəhətlərindən söz açdılar.








## 10 İLLİYİNƏ HƏSR OLUNAN ELMİ - PRAKTİK KONFRANS

Universitetin İqtisadiyyat və menecment departamentinin müdiri Ceyhun Məmmədov Xəzər Universitetinin Miqrasiya Araşdırmaları Mərkəzi haqqında təqdimatla çıxış etdi.

Açılış mərasimindən sonra elmi-praktik konfransın plenar iclasında ölkə və xarici mütəxəssislərin üç mövzunu – "Miqrasiya siyasəti və insan hüquqları", "Qaçqınlar və sığınacaq axtaran şəxslərin beynəlxalq himayəsi" və "Qloballaşma dövründə miqrasiya prosesləri: çağırışlar və cavab tədbirləri" mövzularını əhatə edən məruzələri dinlənildi. Plenar iclasa DMX Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi Vahid Qəhramanov moderatorluq edirdi (fotolar səh. 2-də).

Azər Allahverənov, Xəyalə Abbasova, Nazim Salmanov, Gülgün Babayeva, İslam Hidayətov, Cəmil Hüseynov (DMX), Ronald Sketdon ( İngiltərədəki Sasseks və Niderlnddakı Maastrixt universitetləri), Meltem Ersan (BMqT), Fuad Cabbarov (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi), Roland Hosner (MSIBM Tədqiqat Bölməsi), Turan Cahangirova (Ombudsman aparatı), Rima Məmmədova, Sevinc Şəfiyeva (Xəzər Universiteti), Mətləb Mahmudov (AMEA Fəlsəfə İnstitutu), Rövşən Kərimov, Zakir Eminov (AMEA Coğrafiya İnstitutu), Rəna Ağamirova (Gənclər və İdman Nazirliyi), Qərib Əsgərov (Dövlət Sərhəd Xidməti Akademiyası) və Rafiq Nəcəfquliyev (DİN Polis Akademiyası) hazırladıqları elmi məruzələri konfransa təqdim etdilər.

Məruzələr ətrafında müzakirələrdən sonra elmi-praktik konftransın işinə yekun vuruldu və qətnaməsi qəbul olundu.

Konfransda Xəzər Universitetinin rektoru Hassan Niknafs və İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak edirdilər.

Tədbir ölkə mediasında geniş işıqlandırılmışdır.









On February 17, Khazar University and the State Migration Service of the Republic of Azerbaijan jointly held a conference to celebrate 10 years of the State Migration Service in Azerbaijan in the "Marble Hall" on Khazar University's Neftchilar Campus. The topic of the conference was "Migration Policy in Azerbaijan: Achievements and Development Perspectives".

The conference was attended by officials and staff members of Khazar University, the State Migration Service, governmental and international agencies, NGOs as well as scholars and experts of Azerbaijan National Academy of Sciences and other Azerbaiajni higher educational institutions.

The conference was opened with a short film highlighting achievements of the State Migration Service in Azerbaijan.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made an opening speech in which he stressed the importance of the conference topics. He also gave brief information about Khazar University to the audience.

Pariz Musayev, Deputy-Director of the State Migration Service of Azerbaiajn, spoke about the history of the agency, its activities and achievements in the past decade.

Other speeches were made by Furio de Angelis, Head of UNHCR Office in Baku and Serhan Aktoprak,







# CELEBRATING 10 YEARS OF STATE MIGRATION SERVICE IN AZERBAIJAN HELD AT KHAZAR UNIVERSITY

Director of the International Organization for Migration. Dr. Jeyhun Mammadov, Head of the Department of Economics and Management, made a presentation on Khazar University Center for Migration Studies.

A panel discussing three important topics – Migration Policy and Human Rights ", " International Protection of Refugees and Asylum Seekers ", " Migration in the Era of Globalization: Challenges and Responses", followed the opening ceremony. The plenary session was chaired by Vahid Gahramanov, Head of the Department of Migration Policy and Legal Guarantees of the State Migration Service.

Presentations were made by Azer Allahverenov, Khayala Abbasova, Nazim Salmanov, Gulgun Babayeva, Isalm Hidayetov, Jamil Huseynov (State Migration Service); Ronald Sketdon (Sussex and Maastricht universities); Meltem Ersan (UNCHR); Fuad Jabbarov (Ministry of Labor and Social Protection of the Population of Azerbaijan Republic); Roland Hosner (International Centre for Migration Policy Development); Turan Jahangirova ( Ombudsman Office of Azerbaijan); Rima Mammadova, Sevinj Shafiyeva (Khazar University); Metleb Mahmudov, Zakir Eminov (Azerbaijan National Academy of Sciences); Rena Agamirova (Ministry of Youth and Sport of Azerbaijan Republic); Garib Asgarov (State Border Service of Azerbaijan Republic); and Rafig Najafguliyev (Police Academy, Ministry of Internal Affairs of Azerbijan Republic).

Following discussions, resolutions were accepted at the end of the conference.

Khazar University President Hassan Niknafs and Alovsat Amirbayli, Media and Public Relations Director, participated at the conference.



# HAMLET İSAXANLI: "AZƏRBAYCANDA TƏLƏBƏLƏRİN SAYI ARTIRILMALIDIR, AMMA UNİVERSİTETLƏR..."



*Fevralın 8-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Şərq" qəzetinin internet səhifəsi Sherg.az-a müsahibə verib. O, təhsil Nazirliyinin ali məktəblərə tələbə qəbulunun sayının artırılmasına dair təklifləri hazırlayaraq hökumətə təqdim etməsi ilə bağlı məsələyə münasibətini bildirmişdir. Müsahibəni oxucularımıza təqdim edirik.*

**Təhsil Nazirliyi (TN) ali məktəblərə tələbə qəbulunun sayının artırılmasına dair təklifləri hazırlayaraq Nazirlər Kabinetinə təqdim edib. Bu barədə təhsil naziri Mikayıl Cabbarov bildirib. O qeyd edib ki, ali təhsil müəssisələrində tələbələrin sayı getdikcə artacaq:**

"Təhsil Nazirliyi ali təhsil müəssisələri tərəfindən edilən müraciətlər əsasında bu il ali təhsil sistemində hazırlıq ilinin tətbiqi şərti ilə ali məktəblərə qəbulun genişləndirilməsinə dair, yəni, qəbul olunan tələbələrin sayının artırılmasına dair təklifləri hökumətə təqdim edib".

**Nazir onu da əlavə edib ki, hazırda həmin təklifə hökumətdə baxılır:**

"Bu dəyişiklik qəbul olunsa, ölkədə ali təhsil səviyyəsinə qəbul olunan tələbələrin sayı nisbətən artacaq və yüksək akademik nailiyyətlər göstərən tələbələr təhsillərinə dərhal başlaya biləcəklər. Zəruri bilik səviyyəsi nümayiş etdirə bilməyən, lakin ali təhsilə meylli olan və ali təhsil almaq istəyən tələbələr bir sıra ixtisaslar üzrə ali məktəblərin nəzdində xüsusi hazırlıq kursları keçdikdən sonra ali təhsilə yiyələnə biləcəklər".

**Nazirin açıqlamasını dəyərləndirən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı məsələni Sherg.az-a bu cür izah edib:**

"Burada söhbət ali təhsilin əlyetən olmasından gedir. Tutalım, burada əlavə hazırlıq kursları yoxdur və prosesə, olduğu kimi, tələbə qəbulu üzrə komissiya ilə

davam edirik. Tələbənin sayını artırmaq lazımdır, buna şübhə yoxdur. Amma ali məktəblərdə keyfiyyətə yanaşma müxtəlifdir. Birində sistem çox ciddidir, digərində orta ciddidir, o birində zəif ciddidir və birində də heç bir ciddilik yoxdur. Yəni, birində vəziyyət çox təmizdir, digərində orta təmizdir, o birində az təmizdir, biri də natəmizdir. Bu, qəbul prosesi ilə əlaqədar deyil. Söhbət universitetlərin təhsilə ciddi münasibətindən gedir. Həmişə deyirəm ki, universitetlər süzgəc sistemidir. Tələbə ora gəlir və o, hər semestr imtahan verir, beləliklə də yeni bilik qazanır. Çətin olduqda kəsilib, yenidən imtahan verməlidir. Yəni, o, universiteti mütəxəssis olandan sonra bitirməlidir. Bu da universitetlərdən asılıdır. Təbii, nazirlik istəyir ki, bütün təhsil müəssisələri ciddi olsun və keyfiyyətli təhsil versin. Amma universitetlər çox fərqlidir. Tələbə nə yolla gəlir gəlsin, o, universitetdə vahid proqram keçməlidir. Çox əla oxuyan da, orta oxuyan da, zəif oxuyan da eyni proqramı bitirməlidr. Biri sadəcə yüksək qiymətlər alır, biri orta, biri də zəif".

**Tələbələrin sayının artmasına diqqət çəkən professor söyləyib ki, bu artım meyli ümumdünya tendensiyasıdır və Azərbaycan bu sahədə çox geri qalır:**

"Məsələn, bizdə orta məktəbi bitirənlərin təqribən 20 faizi tələbə adını qazanır. Gürcüstanda 40 faizdir. Dünyanın qabaqcıl ölkələrində isə 70-80 faizdir. Azərbaycan bu sahədə çox geridir və ona görə də, indiki dövrdə ali təhsil alanların sayı artmalıdır. Bu istiqamətdə alternativ yol yoxdur. Amma gərək ki, universitetlərimiz ciddi olsun. Onda valideyn də uşağını ciddi universitetlərə qoymalıdır ki, övladı yaxşı təhsil alsın. Oranı bitirəndə aldığı diplomun qiyməti, dəyəri olsun. Və işə asanlıqla düzələ bilsin. Bu, həm də artq cəmiyyətin problemidir. Valideynin və qəbul olanın istəyinə bağlıdır. Amma artım meylinin qarşısını almaq olmaz. Mütləq şəkildə Azərbaycanda tələbələrin sayı ən azı iki dəfə artmalıdır ki, ümumdünya göstəricilərinə bir az yaxınlaşaq. Yəqin nazirlik də bununla əlaqədar deyir ki, say artırılmalıdır. Amma qərarın bütün detalları ilə tam tanış deyiləm. Görünür, hələ müzakirə gedir".

**H. İsaxanlı onu da əlavə edib ki, ümumiyyətlə təhsilin bir nömrəli problemi kimi onun əlçatan olması göstərilir:**

"Ondan sonra deyirlər ki, təhsil əlçatan olmaqla yanaşı, keyfiyyətli olmalıdır. Sonra da deyirlər təhsilin maliyyə bazası olsun. Baxın, orta təhsil addım-addım icbari təhsil oldu. Düzdü, ali məktəbi icbari etmək olmur və bunu icbari etmək də düzgün deyil. Amma bununla yanaşı, insanlara ali təhsil almaq imkanları yaratmaq lazımdır. Kim ki ali təhsil almaq istəyir, universitetin də onu qəbul etməyə yeri var, qoy oxusun. Bircə qalır universitetlərin seçilməsi. Bu da valideynlərdən və təhsil almaq istəyəndən asılıdır. Deyim ki, Amerikanın özündə hardasa 5 min universitet var. Onların içərisində zəiflər, ortalar və çox əlalar var. Orada da belədir. Yəni, adamlardan biri ən yaxşıya, biri ortaya, digəri də zəif ali məktəbə daxil olur".

**Ayyət Əhməd**

*http://www.sherg.az/site/id-*
*"Azərbaycanda_tələbələrin_sayı_artırılmalıdır,__amma_universitetlər..."*

## "XƏZƏR"İN DOKTORANTURA TƏLƏBƏSİ SANA İMRAN BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universitetinin müəllimi və doktorantı Sana İmran yanvarın 23-dən 25-dək Barselonada keçirilən beynəlxalq konfransda iştirak etmişdir. ABŞ-ın Şərq-Qərb İnstitutu tərəfindən təşkil olunmuş konfransa dünyanın müxtəlif ölkələrindən tədqiqatçılar qatılmışdılar. Azərbaycanı tədbirdə təmsil edən Sana İmran "Milli kimliyin möhkəmləndirilməsində brendlərin rolu" adlı təqdimatla çıxış etmişdir.

Sana İmran Azərbaycanın iqtisadi, ticari və turist potensialından danışaraq, diqqəti Azərbaycanın strateji coğrafi mövqeyinə və hidrokarbon resurslarına yönəltmişdir.. O, eyni zamanda, milli brendlər vasitəsilə millətlərin beynəlxalq aləmdə tanınmasının təhlilinə yer ayıraraq, qeyd etmişdir ki, "yumşaq güc" vasitələrindən səmərəli istifadə etməklə brendlər milli kimliyin güclənməsinə xidmət edə bilər.



## KHAZAR UNIVERSITY PHD STUDENT SARA IMRAN IN INTERNATIONAL CONFERENCE

On January 23-25, Sana Imran, Khazar University doctoral student, participated in an international conference held in Barcelona, Spain. The event was organized by the West East Institute of USA and attended by multinational scholars from across the globe. Representing Azerbaijan at this educational event, Sana Imran presented her research paper entitled "The Role of Brands in Strengthening of National Identity."

In her talk, Ms. Imran touched upon the economic, trade and tourism potentials of Azerbaijan. Sana Imran laid stress on Azerbaijan's strategic geographical location and sizeable hydrocarbon resources. Her focus remained on the analytical assessment of nations' recognition through efficient proliferation of national brands – by employing soft power tools intelligently, brands can strengthen national identity.

## DOSENT ELMİRA MƏMMƏDOVA - KEKEÇİN MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi dosent Elmira Məmmədova-Kekeçin "*Age poetry as autobiographic items in the literature of Turkic nations*" ("Vücudnamələr Türk xalqlarının ədəbiyyatında avtobioqrafik göstərici kimi") adlı məqaləsi "İnternational journal of Scientific and engineering research" jurnalının VII bölüm dekabr nömrəsində çapdan çıxmışdır. Jurnal elektron versiyadadır. Məqaləni bu link vasitəsilə oxumaq olar:

*http://www.ijser.org/onlineresearchpaperviewer.aspx?age-poetry-as-autobiographic-items-in-the-literature-of-turkic-nations.pdf*

# Erasmus+

## LAYİHƏ TƏRƏFDAŞLARININ BRÜSSELDƏ GÖRÜŞÜ

Yanvarın 25-26-da Brüsseldə Erasmus+ proqramı çərçivəsində 2016-cı il üçün maliyyələşdirilməyə seçilmiş layihələrin koordinatorlarının illik görüşü keçirildi. Görüşdə Xəzər Universiteti İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva da iştirak edirdi. İki günlük görüşdə 100 ölkədən 147 ali məktəbin nümayəndəsi layihə ilə bağlı fikir mübadiləsi və müzakirələr apardı. Görüşün ikinci günü xüsusi yaradılmış qrup suallara cavab verdi.

Ardıcıl olaraq üçüncü ildir ki, Xəzər Universiteti layihə qazanır və ikinci dəfədir ki, Xəzər Universiteti layihə qazanan yeganə Azərbaycan universitetidir.

Xəzər Universitetinin "Azərbaycan universitetlərində təlim-tədris prosesinin inkişafı" adlı hazırkı layihəsi 14 yerli və Avropa universitetini bir araya gətirir və Azərbaycanda təlim-tədris işinin gücləndirilməsinə xidmət etməyi nəzərdə tutur.

## GRAND HOLDERS' ANNUAL MEETING IN BRUSSELS

On January 25-26, an annual meeting was held in Brussels, Belgium for coordinators of projects selected for funding within the Erasmus+ 2016 Program. Raziya Isayeva, Khazar University's Development Director, participated in the meeting. The two-day meeting brought together representatives of 147 institutions to discuss program related matters and exchange ideas. A special helpdesk was organized to answer questions from coordinators on the second day of the event.

One hundred countries were represented in the event, and Khazar University was the only university from Azerbaijan. Khazar University is a grant holder for the third consecutive year. Khazar University's current project entitled "Promoting Excellence in Teaching and Learning in Azerbaijani Universities" (PETLA) involves 14 partners from Azerbaijan and Europe and intends to promote teaching and learning excellence in Azerbaijan.

For the second successive time, Khazar University is the only grant holder from Azerbaijan.

## DOSENT RÖVŞƏN ABBASOV BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov Yamaykanın Monteqo Bay şəhərində fevralın 3-dən 6-dək dünyanın 49 ölkəsindən nümayəndələrin iştirakı ilə keçirilmiş "Toksik çirklənmə mənbələrinin qlobal inventarizasiyası" adlı beynəlxalq konfransda "Sumqayıt yaxınlığında çimərliyin toksik tullantılardan təmizlənməsi" mövzusunda məruzə etmişdir.



## ROVSHAN ABBASOV AT INTERNATIONAL CONFERENCE IN JAMAICA

On 3-6 February, Rovshan Abbasov, Head of the Department of Geography and Environment, participated at an international conference on "Global Inventory of Toxic Contamination Sources". Rovshan Abbasov made a presentation on "Remediation near Sumgait – cleaning of toxic contaminants from the beach" at the event.

Forty-nine countries were represented at the event.




# "GƏNC PSİXOLOQLARIN 1 - Cİ DEBAT ÇEMPİONATI" LAYİHƏSİ BAŞA ÇATDI

Fevralın 4-də Xəzər Universitetində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun 8-ci qrant müsabiqəsinin qaliblərindən biri olan Nərgiz Allahquluzadənin rəhbərliyi ilə gerçəkləşdirilən "Gənc Psixoloqların 1-ci Debat Çempionatı" layihəsinin yekun mərhələsi keçirildi.

Əvvəlcə hakimlər tərəfindən püşkatma həyata keçirildi, komandalar qruplara bölündü, təsdiq və inkar oynayacaq komandalar ayrıldı. Komanda görüşlərindən sonra qrupdan çıxan komandaların püşkatma ilə oynayacaqları mövqelər müəyyən edildi. Yarımfinalda qarşılaşan 4 komandanın gərgin mübarizəsindən sonra final mərhələsində "Legion 13" komandası ilə "Komanda" komandası arasındakı qarşılaşmada "Komanda" komandası Gənc Psixoloqların 1-ci Debat Çempionatının qalibi adını qazandı.

Çempionatın sonunda qalib komanda kubokla, üzvləri isə birincilik medalı və sertifikatla, çempionatda ikinci olan komanda üzvləri "Finalçı" sertifikatı ilə, altı nəfər spiker "Ən yaxşı spiker" sertifikatı ilə, bir nəfər hakim "Ən yaxşı hakim" sertifikatı ilə, qalan bütün iştirakçılar isə "İştirakçı" sertifikatı ilə təltif edildilər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər fondunun maliyyə dəstəyi ilə həyata keçirilən "Gənc Psixoloqların 1-ci Debat Çempionatı" layihəsi 3 ay müddətində keçirildi və layihənin icrasında layihə rəhbəri Nərgiz Allahquluzadəyə təşkilati işlərdə Debat Vətəndaş Cəmiyyəti (DVC) və Gənc Psixoloqlar İctimai Birliyi (GPB), çempionatın keçirilməsində isə Xəzər Universiteti dəstək oldu.

# "XƏBƏR - NEWS" QRUPUNUN MƏLUMATI

Xəzər Universitetinin "Xəbər - News" qrupu universitetin (www.khazar.org) və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının (www.hisaxanli.org) vebsaytlarında yerləşdirilmiş xəbərlər haqqında müqayisəli məlumat hazırlamışdır. Onu oxucularımıza təqdim edirik.

Universitetin vebsaytında (2008- 2015 - ci illər): 2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547.

Professor Hamlet İsaxanlının vebsaytında (2009 – 2016 - cı illər): 2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158.

# INFORMATION FROM KHAZAR UNIVERSITY NEWS TEAM

Khazar University news team presents a comparative analysis of the news articles published on the university website (www.khazar.org) and on the official website (www.hisaxanli.org) of Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

www.khazar.org (2008-16): 2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547.

www.hisaxanli.org (2009-16): 2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158.

# "ELM ÜÇBUCAĞI" PROQRAMININ NÖVBƏTİ VERİLİŞİ

Fevralın 19-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının İctimai TV-də "Elm üçbucağı" proqramının növbəti verilişi yayımlandı.

Budəfəki veriliş 2016-cı il dekabrın 29-da çəkilmiş "Elm adamları və bilik əldə etməyin yolları" mühazirəsinin yazısı idi.

# "TRIANGLE OF SCIENCE" SHOWING ON PUBLIC TV

On February 19, 2017, the "Elm üçbucağı" (Triangle of Science) program by Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was broadcast on Public TV. The broadcast was a showing of the December 29th lecture on "Scholars and the Ways to Obtain Knowledge."





## DOSENT FƏRDA ƏSƏDOV SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİNDƏN DANIŞDI

Xəzər Universitetinin Avrasiya və Orta Şərq araşdırmaları mərkəzinin direktoru, dosent Fərda Əsədov "İki müqəddəs məscidin xadimi, Səudiyyə Ərəbistanı kralı Səlman ibn Əbd əl-Əzizin qonaqları" proqramı ilə yanvarın 4-dən 14-dək Məkkə və Mədinə şəhərlərinin müqqədəs ziyarətgahlarına səfərdə olmuşdur.

Azərbaycanda İslam Həmrəyliyi İli elan olunması nəzərə alınaraq, universitetin Tarix və arxeologiya departamentinin təşəbbüsü ilə fevralın 7-də F. Əsədovla görüş keçirildi. O, səfəri haqqında təəssüratlarını iştirakçılarla bölüşdü.

Görüşdə Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, müəllimləri Orxan Zamanov, Ülviyyə İbrahimova, Samirə Qarayeva ilə yanaşı, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Təhsil fakültəsinin dekanı Elza Səmədova, Xəzər Universitetinin Məzunlarla iş üzrə koordinatoru Baba Bayramlı, Dillər və mədəniyyətlər departamentinin müdiri Elnurə Əzizova, Bioloji elmlər departamentinin müdiri İradə Xəlilova, Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri Vurğun Əyyub, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Eynur Mehdiyev, Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədov, fars dili müəllimi Zivər Hüseynli iştirak edirdilər.

Görüş zamanı slaydlar və videoçarxlar nümayiş etdirildi.

## DR. FARDA ASADOV TALKS ABOUT HIS VISIT TO SAUDI ARABIA

On January 4-14, Farda Asadov, Khazar University instructor, visited Mecca and Medina within the framework of the "Guests of Custodian of the Two Holy Mosques King Salman bin Abdulaziz Al-Saud Hosting" program.

On February 7, Khazar University's Department of History and Archeology organized a meeting in which Farda Asadov shared his impressions of the visit to Mecca and Medina. The meeting was attended by Roza Arazova, Head of the Department of History and Archeology; instructors Orxan Zamanov, Ulviyya Ibrahimova, Samira Garayeva; Akifa Jafarli, assistant to the department head; Elza Samadova, Dean of the School of Education; Baba Bayramlı, Alumni Center Coordinator; Elnura Azizova, Head of the Department of Languages and Cultures; Irada Khalilova, Head of the Department of Biological Sciences; Vurgun Ayyub, Head of the Department of Azerbaijani Language and Literature; Eynur Mehdiyev, Head of the Department of English Language and Literature; Zivar Huseynli, instructor; and Jabir Mammadli, Coordinator of the Department of Journalism.

Pictures and slides were presented during the meeting

## KARYERA MƏRKƏZİNİN KOORDİNATORU "BAKER TILLY" ŞİRKƏTİNDƏ

Fevralın 7-də Xəzər Universiteti Karyera mərkəzinin koordinatoru Ülviyyə Hüseynova "Baker Tilly" şirkətində Marketinq şöbəsinin nümayəndəsi Günel Abbasova ilə görüşdü. Görüşdə növbəti Karyera sərgisinin keçirilməsi üçün sponsorluq təklifi müzakirə olundu. Cari ilin may ayının sonunda keçiriləcək iki günlük Karyera sərgisi Xəzər Universitetinin tələbələri, məzunları və digər universitetlərin tələbə və məzunları üçün nəzərdə tutulur.

Görüşdə Karyera sərgisinin "Baker Tilly" şirkətinin sponsorluğu ilə keçirilməsi haqqında razılıq əldə edildi.

# DR. RƏSUL MURADİNİN MƏQALƏSİ BEYNƏLXALQ JURNALDA



Xəzər Universiteti Kimya mühəndisliyi departamentinin koordinatoru Dr. Rəsul Muradinin "Synthesis and Preparation of Mono-Layer h-BN Nanopowders by Using a Combination of CVD Method with Isopropanol-Assisted Exfoliation Process" ("İzopropanol-dəstəkli aşındırma prosesi ilə CVD metodunu bir arada istifadə edərək, təklaylı h-BN nanotozların sintezi və hazırlanması") adlı məqaləsi "Springer" nəşriyyatının *"Powder Metallurgy and Metal Ceramics"* ("Toz metallar və metal keramika") jurnalında (cild 55, yanvar 2017, səh. 34-46) çap olunub.

Dr. Muradi Xəzər Universitetində çalışmağa 2016-ci ilin sentyabrında Tehran Universitetindən gəlmişdir. Onun tədqiqat sahəsi mühəndisliyin müxtəlif tətbiqi sahələri üçün nano-texnologiya materiallarından istifadə edərək membranların hazırlanmasıdır. Dr. Muradi laboratoriya quraraq, nano-texnologiya üzrə tədqiqat işlərini neft mühəndisliyi, mexanika mühəndisliyi və bio-texnologiya mühəndisliyi kimi sahələrdə genişləndirmək üçün Xəzər Universitetinin tədqiqatçılarından ibarət bir komandaya rəhbərlik edəcək.

# DR. RASOUL MORADİ'S ARTİCLE İN İNTERNATİONAL JOURNAL

Dr. Rasoul Moradi's novel research on the fabrication of two-dimensional (2D) materials, which moves on the cutting edge of Engineering, is now online:

*http://link.springer.com/article/10.1007/s11106-017-9836-1*

The article entitled "Synthesis and Preparation of Mono-Layer h-BN Nanopowders by Using a Combination of CVD Method with Isopropanol-Assisted Exfoliation Process" was published in the *Powder Metallurgy and Metal Ceramics* journal, a well-known Springer publication.

Dr. Moradi is the coordinator of the Department of Chemical Engineering at Khazar University. He joined Khazar University from Tehran University in September 2016. Dr. Moradi's research interest is in the area of designing membranes using Nano-Technology materials for various applications of the engineering fields. He will be heading a team of researchers at Khazar University for establishing a laboratory in order to extend this research in other fields of engineering such as Petroleum Engineering, Mechanical Engineering, and Biotechnology.




# "GİLAN HOLDİNQ" ŞİRKƏTİNDƏ GÖRÜŞ

Fevralın 8-də Xəzər Universiteti Karyera mərkəzinin koordinatoru Ülviyyə Hüseynova "Gilan Holdinq" şirkətində Marketinq departamentinin nümayəndələri ilə görüşdü. Görüş "Gilan Holdinq" şirkəti ilə sıx əməkdaşlıq etmək, TEDx tədbirində sponsorluq təklifini müzakirə etmək, Karyera sərgisində yaxından iştirak etmək haqqında idi.

Şirkət nümayəndələri bundan sonra sıx əlaqədə olaraq, müəyyən tədbirlər haqqında əməkdaşlıq təkliflərini dəyərləndirəcəklərini bildirdilər.

# MEETING AT GILAN HOLDING OFFICE

On February 8, Ulviyya Huseynova, coordinator of Khazar University's Career Development Center, met with the representatives of Gilan Holding. The meeting was intended to enhance cooperation with Gilan Holding – to discuss sponsorship possibilities for Khazar University's Tedx conference and active participation in the upcoming Career Fair. The representatives of the company expressed their interest in possible future cooperation.

# "THOMSON REUTERS"İN YENİ LAYİHƏSİNƏ START VERİLDİ

Dünyanın aparıcı informasiya agentliyi "Thomson Reuters"in "Web of Science" platformasının Azərbaycanda ali təhsil müəssisələri üçün yeni layihəsinə start verildi.

Layihənin məqsədi "Thomson Reuters"ə geniş çıxışı əldə etməklə, Azərbaycan alimlərinin elmi əsərlərinin istinad indeksli jurnallarda nəşrlərinin sayının artırılmasına yardım göstərməkdir. Layihənin köməyi ilə alimlər öz sahələrinə dair elmi jurnalların müqayisəli qiymətləndirilməsini apara və nəşr üçün daha effektiv şəkildə jurnallar seçə biləcəklər. Layihə ilə əlaqədar Azərbaycanın ali təhsil müəssisələrində tədbirlər keçiriləcəkdir.

Layihənin ilk tədbiri fevralın 15-də Azərbaycan Memarlıq və İnşaat Universitetində, keçirildi. İki hissədən ibarət olan tədbirdə əvvəlcə "Thomson Reuters" Agentliyi Elm və təhsil departamentinin əməkdaşı Aygün Babazadə təmsil etdiyi agentlik və həmin qurumda yer alan elmi jurnallar haqqında ətraflı məlumat verdi. Sonra o, agentliyin təqdim etdiyi Web of Science və onunla əlaqəli resurslarla iş üzrə istiqamətlərin verilməsi, platformada axtarışın effektiv aparılması, ən nüfuzlu jurnalların və yüksək istinadlı məqalələrin axtarılıb tapılması, platformada qeydiyyatdan keçmək və s. məsələlərlə bağlı izahat verdi.

Tədbirin ikinci hissəsində Xəzər Universitetinin *Khazar Journal of Humanities and Social Sciences* ("Xəzər humanitar və sosial elmlər jurnalı") adlı beynəlxalq elmi jurnalın redaktor assistenti Xəyalə Məmmədova elmi jurnalın idarə edilməsi prinsipləri, Web of Science platformasına daxil olmaq üçün jurnallar, eyni zamanda orda çap olunacaq məqalələr qarşısında qoyulmuş tələblər , elmi məqalələrin təqdimetmə qaydaları, seçim meyarları və digər praktiki məsələlərlə bağlı tədbir iştirakçılarını geniş məlumatlandırdı.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırıldı.

# THOMSON REUTERS STARTS NEW PROJECT

On February 15, 2017, a ceremony to celebrate the start of a new project of Thomson Reuters was at held at Azerbaijan University of Architecture and Construction. The objective of the project is to help Azerbaijani scholars increase the number of publications in high impact journals; by the end of the project, scholars will be able to choose appropriate journals for their articles. A series of events will be organized at Azerbaijani universities within the framework of the project.

The first meeting of the event was organized at Azerbaijan University of Architecture and Construction. The event was opened by Aygun Babazade, staff member of the Department of Science and Education of Thomson Reuters; she gave information about the organization and academic journals accredited by Thomson Reuters.

In the second half of the ceremony, Khayala Mammadova, assistant editor of the *Khazar Journal of Humanities and Social Sciences*, spoke about the management principles, submission and publishing requirements of a scholarly journal and other practical issues.

A questions and answers session followed.

# PROFESSOR HAMLET İSAXANLININ MÜSAHİBƏSİ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı fevralın 24-də lent.az-a müsahibə vermişdir.

Müsahibəni bu linklər vasitəsilə oxumaq olar:
http://news.lent.az/news/268419;
http://yenizaman.az/v5/w61692/.../;
http://gunxeber.com/meni-masina-qoyub-apardilar-rektordan-sensasiyali-aciqlama/;
http://www.azertaym.az/sosial/20772-men-mashna-qoyub-apardlar-.html.

(*Müsahibə yurnalın 26-29-cu səhifələrində dərc olunur*).

## XƏZƏR UNİVERSİTETİ ELMİ ŞURASININ İCLASI

Fevralın 16-da Xəzər Universitetinin rektoru Hassan Niknafsın sədrliyi ilə Elmi şuranın növbəti iclası keçirildi. Gündəliyə əsasən imtahan sessiyasının nəticələri, növbəti semestrə hazırlıq, akkreditasiya, Bioloji elmlər departamentinin müdiri, fəlsəfə doktoru İradə Xəlilovanın dosent, Musiqi və incəsənət departamentinin müdiri, dosent Zülfiyyə Sadıqovanın professor vəzifəsinə seçilməsi haqqında Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyevin məlumatları dinlənildi.

2017-ci il üzrə doktoranturaya qəbulun nəticələri, 2017-ci ildə qəbul olunmuş doktorant və dissertantlara təklif olunan dissertasiya mövzuları və elmi rəhbərlərin müzakirəsi və təsdiqi, Təhsil departamentinin "Təhsilin təşkili və planlaşdırılması ixtisası" üzrə doktorantı Səmayə Həsənovanın doktoranturadan dissertanturaya keçirilməsi haqqında Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyev, Bioloji elmlər departamentinin doktorantı Züleyxa Ələkbərovanın "Biotexnologiya" "Biokimya" ixtisasına keçirilməsi haqqında Bioloji elmlər departamentinin müdiri İradə Xəlilova məlumat verdilər. Gündəlikdəki məsələlər ətrafında müzakirələr aparıldı və müvafiq qərarlar qəbul edildi.

Elmi şuranın iclasında universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, nüfuzlu jurnallarda əməkdaşların elmi məqalələrinin çapının artırılması və beynəlxalq əlaqələrin daha da genişləndirilməsi zərurətindən danışdı.

Elmi şuranın iclasında cari məsələlər də müzakirə olundu.

## KHAZAR UNİVERSİTY SCİENTİFIC COUNCİL'S MEETİNG

On February 16, a routine meeting of the Khazar University Academic and Administrative Council was held. The meeting was chaired by University President Hassan Niknafs.

Items on the agenda included details of the examination session, preparations for the next semester, accreditation, awarding the title of Associate Professor to Dr. Irada Khalilova, Head of the Deaprtment of Biological Studies; and the title of Professor to Associate Professor Zulfiyya Sadigova, Head of the Department of Music. Reports were given by Mohammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs.

Other reports were given by Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research, on the topic of on the 2017 admission results, Ph.D. dissertation topics and academic advisors; by Irada Khalilova on transferring Zuleykha Alakbarova from the speciality of Biotecnology to Biochemsitry.

Decisions were made on the above topics.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, also spoke at the meeting; he stressed the importance of publisihng in top journals and expanding international ties.

Other current issues were also discussed at the meeting.



## "DÜNYA" MƏKTƏBİNİN MÜƏLLİMİ FƏLSƏFƏ DOKTORU DİPLOMU ALDI

Fevralın 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında diplomların təqdim olunması mərasimi keçirildi. "Dünya" məktəbinin ingilis dili müəllimi Altuntac Məmmədova da filologiya üzrə fəlsəfə doktoru diplomu aldı.

## DUNYA SCHOOL TEACHER AWARDED PHD DIPLOMA

On February 16, the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan held an awards ceremony for Ph.D. degree holders. Altuntaj Mammadova, English Teacher of Dunya School, received her diploma (Ph.D. in Philology).



# TƏHSİL NAZİRLİYİNİN BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ŞÖBƏSİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Fevralın 16-da Xəzər Universitetində Azərbaycan Respublikasının Təhsil Nazirliyi Beynəlxalq əməkdaşlıq şöbəsinin nümayəndələri ilə görüş keçirilmişdir. Görüşdə Xəzər Universitetindən rektor Hassan Niknafs, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri Muxtar Hacızadə və Beynəlxalq Ofisin direktoru Turan Cəfərova, Təhsil Nazirliyindən Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini İlqar Yusubov və böyük məsləhətçisi Müjdət Həsənov iştirak etmişlər.

Görüş zamanı nazirliyin nümayəndələrinə Xəzər Universitetinin beynəlxalq əməkdaşlığı barədə geniş məlumat verilmişdir. Xarici tələbələr üçün nostrifikasiya prosedurunun daha da asanlaşdırılması, universitet haqqında məlumatların ingilis dili ilə yanaşı digər xarici dillərdə də yayılması, xarici tələbələrin qəbulunun onlayn platforma üzərindən aparılması haqqında müzakirələr aparılmışdır. Bundan əlavə, universitetə qəbulun il ərzində bir dəfə deyil, müxtəlif vaxtlarda həyata keçirilməsi, doktorantura pilləsində təhsil almağa gələn xarici tələbələrə iş icazəsinin verilməsi və Təhsil Nazirliyi tərəfindən xarici vətəndaşlara da təqaüd imkanlarının yaradılmasına dair təkliflər irəli sürülmüşdür.

# MEETING WITH REPRESENTATIVES OF INTERNATIONAL RELATIONS OFFICE OF MINISTRY OF EDUCATION

On February 16, a meeting with the representatives of the International Relations Office of the Ministry of Education of Azerbaijan was held at Khazar University. The meeting was attended by Ilqar Yusubov, Deputy Director of the International Relations Office of the Ministry of Education; Mujdat Hasanov, Senior Advisor of the Ministry; Hassan Niknafs, President of Khazar University, Mohammad Nuriyev, Vice-Rector for Academic Affairs; Mukhtar Hajizade; Head of Khazar University's Department of International Relations and Political Affairs; and Turan Jafarova, Director of the International Relations Office. Detailed information about the international relations of Khazar University was given to the guests.

Discussions included issues such as simplifying nostrification procedures for international students, publicizing information about the university in many languages, launching online international admission platform. The meeting participants also discussed possibilities of holding university admission exams several times a year instead of the current pattern of only one exam yearly, issuing work permits for international doctoral students, and providing Ministry of Education scholarships to foreign nationals.



news.Lent.az

# "QORXULU YERDƏN HƏDƏLƏDİLƏR Kİ, O TƏLƏBƏYƏ QİYMƏT YAZIN, YAZMADIQ"– HAMLET İSAXANLI GİZLİNLƏRİ AÇDI

*Lent.az-ın əməkdaşı Kəramət Böyükçöl Xəzər Universitetinin təsisçisi, tanınmış ziyalı Hamlet İsaxanlı ilə söhbətləşib. Müsahibəni təqdim edirik.*

**– Hamlet müəllim, söhbətimizin müsahibədən kənar hissəsində insan azadlığından danışdıq. Maraqlıdır, siz özünüz bir ziyalı kimi nə qədər müstəqil, nə qədər azadsınız?**

– Mən sifarişlə xoşum gəlməyən şeydən danışmıram, susuram. Əgər bunları nəzərə alsaq, tam mübaliğəsiz şəkildə deyirəm: yüz faiz azad, müstəqil adamam. Azərbaycanda baş verən bütün hadisələrə öz sərbəst münasibətimi bildirirəm, lazım gələndə tənqid də edirəm. Hökumətin təhsil və elm siyasəti ilə bağlı dəfələrlə tənqidi fikirlərim olub.

Yadıma gəlir, bir dəfə prezident yanında Təhsil Komissiyası yaradılırdı. Məni də dəvət etdilər. Dedilər, burada təhsil məsələləri müzakirə olunacaq, istəyirik, sən də bu komissiyanın üzvü olasan. Siyahını göstərdilər. Gördüm hamısı nazirlərdir, eyni zamanda Nazirlər Kabinetinin yüksək səviyyəli məmurları, Prezident Aparatının yüksək statusda olan insanları və s. Mən o siyahıya uyğun gəlmirdim. Çünki qeyri-siyasət və qeyri-hökumət adamıyam. Siyahıya baxıb gülümsədim. Komissiyanın sədri Ramiz Mehdiyev soruşdu ki, niyə gülümsəyirsən? Dedim, Ramiz müəllim, mən adətən yazılarımda, çıxışlarımda təhsil siyasətinə tənqidi münasibət bəsləyirəm, heç vaxt tərif yazmamışam. Ramiz müəllim dedi, səni elə ona görə dəvət etmişik, çünki sən dünyadakı təhsil meyllərini bilirsən, yazırsan. Bizə də lazımdır ki, əks fikirlər olsun, müzakirə yaransın.

**– Bəs danışmaq istəmədiyiniz, susduğunuz məqamlar hansı məsələlərlə bağlı olur?**

– Tutalım, bir məclisdir, hamının boynuna düşüb ki, kiməsə tərifli sözlər söyləsinlər, mən orda dillənmirəm. Hətta, deyirlər sən də danış. Deyirəm, yox, mənim heç bir sözüm yoxdur.

**– Susmaq buna deyirsiniz?**

– Bəli. Çünki mənim, doğrudan da, sifarişlə kimisə tərifləmək həvəsim yoxdur.

**– Sizi tərifləyən olanda necə, xoşunuza gəlir?**

– Həddindən artıq tərif çox pis şeydir. Uzaqbaşı, kompliment xarakterli fikirlər ola bilər. Onu da hiss etməliyəm ki, ürəkdən, istedaddan gəlir, qətiyyən başqa məqsədi yoxdur. Hə, onda pis təsir bağışlamır.

Ümumiyyətlə isə, tərif məni əsəbiləşdirir. Bizim müəssisənin rəsmi və qeyri-rəsmi tədbirlərində də ola bilməz ki, kimsə mənim ünvanıma tərif desin. Hamısı yaxşı bilir ki, mənim tərifdən qəti xoşum gəlmir.

**– Maraqlıdır, tərif sizi niyə əsəbiləşdirir?**

– Sən özün də yaradıcı adamsan, ona görə də, məni daha yaxşı anlayarsan. Təsəvvür elə, kimsə durub üzümə qarşı haqqımda yaxşı sözlər deyir. Axı buna nə ehtiyac var?

**– Hamlet müəllim, əsərin, sənətkarın təbliğatı ilə bağlı danışmaq istərdim. Məsələn, Üzeyir Hacıbəyov. Böyük bir bəstəkardır, dəyərli əsərlər müəllifidir. Bəs onun dünyada niyə Çaykovski, Raxmaninov qədər şöhrəti yoxdur?**

– Tək-tək insanlara dahi demək olarsa və Azərbaycan mədəniyyətinin yaradıcılarından danışmaq lazım gələrsə, mənim üçün birinci yerdə Üzeyir Hacıbəyov dayanır. Amma Üzeyir bəyin bir dünya şöhrəti varmı? Yox. Rus bəstəkarları və ya Bax, Bethoven, Motsart, məşhur italyan bəstəkarları ilə müqayisədə...

**– Səbəb nədir, niyə tanınmır Üzeyir bəy?**

– Səbəb odur ki, Avropa insanı bunların – Bax,

Bethoven, Motsartın yazdığı əsərləri anlayır və böyüklüyünü qiymətləndirir. Kənardan gələn əsəri, ədəbiyyatı isə sadə qavramaq olmur. Avropalılar Şərqdən gələn əsəri yalnız o zaman başa düşüblər ki, onun Avropanın içində nəinki şərhi, tərcüməsi, ifası, hətta təbliğatı ilə məşğul olanlar olsun. Məsələn, Geothe kimi adam desin ki, Hafiz dahi şairdir. Yaxud, bir qərbli məşhur Taqoru təbliğ eləsin. Bir zaman Romen Rollan Çingiz Aytmatovu təbliğ edirdi. Çingiz Aytmatov, doğrudan da, böyük bir istedad və dünyaya çıxmalı insan idi. Bunun üçün isə Qərbin tanınmış insanlarının Aytmatovu təbliğ etməsinə çox böyük ehtiyac vardı.

**– Markesin də Çingiz Aytmatov haqqında fikirləri var.**

– Bəli, var. Özü də bu fikirlər xahişlə yox, təbii olmalıdır, içdən gəlməlidir.

**– Bizim maddi cəhətdən imkanlı şairlərimiz, yazıçılarımız var, onlar özlərini xaricdə tərcümə, təbliğ etdirir, kitablarını çıxartdırıb yayırlar. Dünyagörmüş insansınız, belə şeylər də məqbuldurmu?**

– Kimsə öz əsərini təbliğ etdirirsə, bunun özü də müsbət bir şeydir, normal hadisədir. Amma bunlar çox yaxşı tanınmaq üçün kifayət eləmir. Bu təkliflər, bu ehtiyac gerçəkdən də kənardan gəlsəydi, daha əhəmiyyətli olardı. Məsələn, bayaq qeyd etdim, yenə deyirəm, Romen Rollan kimi bir yazıçının, içtimai fiqurun, yaxud başqa görkəmli insanların Çingiz Aytmatov haqqında fikirləri bizim hansısa yazıçı barədə deyilsəydi, əlavə əziyyətə - özünün kitab çıxartdırmağına, tərcümə edilməsinə ehtiyac qalmazdı. Bundan sonra hər şey təbii şəkildə, öz-özünə baş verərdi.

**– Bildiyimizə görə, siz Nobel mükafatçılarının tarixini yaxşı bilirsiniz, bu barədə çoxlu kitablar oxuyubsunuz. Bəzən deyirlər ki, Nobel Komitəsi özü ayrı-ayrı ölkələrin qurumlarına müraciət edir ki, əsər göndərsinlər. Məqsəd isə odur ki, guya qalib gələn əsər neçə-neçə xalqların nümayəndələri arasından birinci olub. Siz bu barədə nə fikirdəsiniz?**

– Yox, mən düşünürəm ki, Nobel Komissiyası belə bir təbliğat aparmır. Bu, yalnız ayrı-ayrı insanların fikri ola bilər. İkincisi, Nobel mükafatına əsər təqdim etmək elə çətin bir proses deyil. Ancaq almaq çox çətindir. Orda əsərləri, doğrudan da, qeyri-adi dərəcədə süzgəcdən keçirirlər. Ədəbiyyatda istedadsız və çox istedadlı olmayan yazıçı Nobel ala bilmir. Amma ola bilər, istedadı bir-birinə yaxın olan insanlardan biri alır, o biri almır. Çünki ədəbiyyat və sülh uğrunda Nobel mükafatlarında siyasi və ideoloji səbəblər çox rol oynayır. Məsələn, namizədlər elənir, elənir, sona iki-üç nəfər qalanda Nobel Komissiyası gözləyir ki, əsas namizədlərin Qərbə xoş gələn bəyanatları olsun.

**– Çingiz Aytmatovun dünya şöhrətindən danışdınız. Söz düşmüşkən, bəs niyə Nobel ala bilmədi?**

– Konkret yazılı fikirlər yoxdur, amma Çingiz Aytmatovun Nobel almamasının səbəbi ilə bağlı Nobel Komissiyasının yüksək dairələrində söz-söhbət gəzir. O zaman Çingiz Aytmatov sona qalan namizədlərdən olub, işarə də gəlib ki, bir-iki antisovet fikir desin. Aytmatov isə təbiətən çox ağır, sanballı adam idi. Deyilənə görə, deyib ki, mən bütün antisovet fikirlərimi əsərlərimdə yazmışam, sovetlərdə xoşuma gələn şeylər də var, gəlməyən də. Əsərlərimdə onlara münasibət bildirmişəm, yazıçının işi budur.

**– Orxan Pamuk isə yuxarıdan gələn işarəni dəyərləndirdi. Belə?**

– Belə deyirlər. Amma, şübhəsiz ki, Orxan Pamuk da çox istedadlı adamdır. Əsas namizədlərdən, məsələn, Amos Oz da vardı, o da çox istedadlı adam idi. Orxan Pamuka işarə çatdırdılar ki, sən erməni genosidi deyilən şey haqqında bir söz de. O da dedi və mükafatı almasında sanki bu fikirlərin də köməyi oldu.

**– Son Nobel mükafatını Bob Dilan aldı. Özü də Nobel Komitəsinə qarşı xeyli saymazlıq elədi. Bizimkilərdən kimsə qalib olsaydı, kövrəlib ağlayardı, sevinc göz yaşları tökərdi, yaxud qaça-qaça gedib mükafatı alardı. Siz də elə düşünürsünüz ki, nəyisə saymamaq, etinasız yanaşmaq sənət adamını bir az da böyük göstərir?**

– Mən fikirləşirəm ki, Bob Dilan təbiətən çox müstəqil insandır, özünün ayrı bir dünyası var. Təbii, hər kəsin öz dünyası var. Bu cür insanların isə xarici aləmdən başqa özünü qane edən bir iç aləmi də var. Həmin an kənardan gələn söz-söhbət, şöhrət, hay-küy, doğrudan da, onu maraqlandırmaya bilər. Bu hiss həm təbii olur, həm də süni. Elələri də var ki, düşünülmüş şəkildə belə addımlar atır. Yəni baxın, mən filankəsi saymadım, hətta, Nobel mükafatını, Nobel komitəsini də. Adətən, çox istedadlı insanlarda bu hisslər süni deyil, təbii olur.

İngilis dilində Nobel mükafatçıları və namizədlər. haqqında bir kitab oxumuşdum. Orda yazılmışdı ki, Lev Tolstoyla Anna Axmatovanın mükafat

almaması çox qəribə oldu. Yəni, yanlış etdiklərini öz boyunlarına alıblar. Tolstoy məlumdur, Anna Axmatova da, şübhəsiz ki, dövrünün böyük şairi olub. Üstəlik də qadın. Qadınlardan böyük şair az olur axı. Böyük filosof heç olmur (*gülür*). Böyük riyaziyyatçı min ildə bir olur.

**– Hamlet müəllim, bəzən ziyalı sözünü adamın boynuna yük kimi qoyurlar və sonra da ondan umurlar. Bəs sizcə, əsl ziyalının missiyası nədir?**

– Sən demiş, ziyalı sözü ən çox istismar olunan sözlərdəndir. Amma deyim ki, bu sözün qeyri-adi yükü də yoxdur. Türklər ziyalıya "aydın" deyir, yəni, işıqlı adam. Yəni, ətrafına işıq sala bilir, aydınlıq gətirə bilir. Ziyalının bir müdrikliyi var. Ziyalının getdiyi bir yol var, o yolun çəkisi, dəyəri olur.

**– Deyirsiniz ki, ziyalı ətrafına işıq sala bilir. Siz isə Gürcüstan azərbaycanlılarına bir köynək daha yaxınsınız. Öz ətrafınıza işıq saça bilirsinizmi?**

– Şübhəsiz ki, mən Gürcüstanla, oranın azərbaycanlı vətəndaşları ilə çox maraqlanıram. Onlar tərəfindən də müraciətlər çox olur. Onların bəzilərinə kömək olunur. Bəzilərinə də olmur. Çünki imkan xaricindədir. Elələri də var, heç müraciət etmir. Özüm eşidirəm problemi var, çağırıram, bacardığımı, əlimdən gələni edirəm.

Azərbaycan və Gürcüstan hökumətləri arasında çox yaxşı münasibətlər var. Bu münasibətlərdən istifadə edib, məsələn, Gürcüstan azərbaycanlıları üçün mədəniyyət ocaqları, bəlkə ali məktəb açmaq olar, ayrı-ayrı işlər görmək mümkündür. Məsələn, Azərbaycan Dövlət Neft Şirkətinin orda ofisi var. İnsanların işə düzəlməsinə kömək edir, ali məktəbdə oxuyanlara pul verirlər və s.

**– Ümumiyyətlə, Gürcüstan azərbaycanlılarının əsas problemləri nədir?**

– Gürcüstanda da bir millətçilik hərəkatı oldu. O zaman Gürcüstan azərbaycanlıları oranı tərk etməsəydilər, indi rəsmi sayı, heç şübhəsiz ki, yarım milyonu keçmişdi. Bu say indi də çoxala-çoxala gedir, təxminən, dörd yüz minə yaxındır. Bu insanların orda dolanışığı, cəmiyyətə inteqrasiya problemləri var. Və onun həllində, hesab edirlər ki, Azərbaycan ziyalıları rol oynamalıdır. Ziyalılar bu işlərə kömək göstərməlidirlər, eləcə də iş adamları. Mən isə orda yerli hökumətin siyasətini və Azərbaycan-Gürcüstan münasibətlərinin rolunu daha kəsərli hesab edirəm. Gürcüstan hökuməti öz siyasətində göstərir ki, insanlar üçün hər şey edirlər, amma deyirlər bizim bir dövlət dilimiz var, dilimizi öyrənsinlər, onlara gərəkli olan hər şey verək.

**– Məktəblərdə gürcü dilini öyrədirlərsə, camaat ayrı nə istəyir? Niyə öyrənmir?**

– Orda məktəblərdə gürcü dilini ciddi şəkildə öyrədirlər. İnsanlarımız bu dili öyrənib ali məktəblərdə oxuyurlar, müəyyən yerlərdə işləyirlər, məsələn, məktəb direktoru vəzifəsində. Direktor olmaq üçün, deyirlər, imtahan verməlisiniz. İki imtahan var: ümumi savad və gürcü dili. Mən özüm şahidəm ki, soydaşlarımız hirslənirlər ki, qıraq yerdən qabiliyyəti olmayan bir adamı gətirib niyə bizim məktəbə direktor qoydular? Axı qabiliyyəti olmayan dediyiniz adam imtahan verib. Özünü qabiliyyətli hesab edən adamlar isə deyir ki, mən təzədən gürcü dilini öyrənəcəyəm? Mən düşünmürəm ki, dil öyrənmək qeyri-adi problemdir.

**– Hamlet müəllim, başqa bir məsələdən danışaq. Azərbaycanın tanınmış və imkanlı adamları barmağının ucu ağrıyan kimi Avropaya gedir. Bunun səbəbi nədir? Günah səhiyyəmizdədir, yoxsa?**

– Avropada həkim olmaq dəhşətli dərəcədə çətindir, bizdə, ən azı, belə deyil. Tibbi təhsil müəssisələri bir-birilə yarışmalıdır. Məsələn, yaponlar Tokio şəhərində beş-altı universitetin hər birinə tibb fakültəsi verirlər, amma deyirlər, hər il yüzdən artıq tələbən olmayacaq. O universitetlər də bir-birilə rəqabət aparır. Kim daha yaxşıdır? Ən yaxşı tələbə, professor hansı universitetdədir? Ən yaxşı professor cəlb etmək üçün maaşı artırırlar. Yaxşı professoru o çağırır, bu çağırır. Professor da yaxşı işləyir, hər il bir kitab yazır.

Bizdə isə bütün ixtiyarı veriblər Tibb Universitetinə, deyiblər ki, kefin nə istəyir elə! Tibb Universiteti də heç nədən çəkinmir. Qorxmur birdən müəllimim, tələbəm çıxıb gedər. Vəziyyət belədir. Ona görə də, Azərbaycanın tanınmış adamları və Tibb Universitetinin görkəmli insanlarına sual verirəm: siz mənə deyin görüm, xəstələnəndə hara gedirsiniz? Əlbəttə, Avropaya, Türkiyəyə, İsrailə, Rusiyaya... Bəli, mən də hesab edirəm ki, imkanı olan insanlar müalicə üçün xaricə getməkdə doğru edirlər. Çünki Azərbaycan tibbi bəzi hallarda çox təhlükəlidir. Siz təsəvvür edin ki, imkanı olmayan da harasa getmək istəyir, məsələn, İrana gedir.

**– Maraqlıdır, siz hara gedirsiniz?**

– Şükür Allaha, mən heç xəstələnmirəm, idmanla da məşğulam, sağlam adamam. Amma həyat yoldaşımın xəstəlikləri olur, həmişə onu Türkiyəyə aparırıq. Sonra isə Amerikaya, İngiltərəyə gedəndə özümlə aparıram ki, orda yoxlatdırım, görüm necədir, müalicəsi doğru gedirmi? Qərb dünyası Türkiyədəki müalicənin yüksək keyfiyyətli olduğunu təsdiq edir.

**–Heç hansısa tələbəyə qiymət yazılması üçün sizə müraciət edənlər olurmu?**

– Burada - Xəzər Universitetində elə bir mexanizm qurulub ki, kiminsə tapşırığı ilə tələbənin qiymət alması həyatı boyu mümkün deyil.

**– Azərbaycanda mümkünsüz şey varmı?**

– Elə mən də onu demək istəyirdim, məni qabaqladınız. Bəzən gəlirlər, tələbəni tapşırmaq istəyirlər. Deyirəm nə danışırsan? Mümkün olmayan şeydir bu. Qayıdırlar ki, bura Azərbaycan deyilmi, necə yəni mümkünsüzdü? Siz buranın sahibi deyilsinizmi? Mənə belə müraciətlər olur. Ancaq heç vaxt heç bir xahişi yerinə yetirməmişəm. Və həmişə belə bir şeyin baş vermə ehtimallarının qarşısını almağa çalışmışam. Mən dekana bir uşaq tapşırsam, dekan fikirləşməzmi ki, sabah bu şeyi mən özüm də eləyə bilərəm?! Filan yerdə rüşvət azdır, çoxdur, belə şey olmur. Rüşvət ya yüz faiz olur, ya da sıfır faiz.

**– Xəzər Universitetində qəti rüşvət yoxdur?**

– Qəti. Mən bir dekana, professora desəm ki, get filan uşağa kömək elə, onları şok vurar ki, Hamlet müəllim bizə belə bir söz dedi. Burada insanlar belə düşüncə sahibidirlər. Buranın xəmiri belə yoğrulub.

**– Heç yüksək vəzifədə olan bir insan sizə zəng etməyib ki, mənim uşağıma qiymət yazdır?**

– Bəli, belə şeylər olub. Bir dəfə isə lap yüksək mərtəbədən zəng etmişdilər. Çoxdan olub bu. Dedilər, bu şeyi elə. Demişəm, mümkün deyil. Buna görə məni çox qorxulu yerdən hədələyiblər. Hətta bir dəfə maşına qoyub, təhlükəsizlik idarəsinə aparıblar. Amma yenə də o tələbəyə süni qiymət yazılmasına imkan verməmişəm.

**– Necə yəni maşına qoyub aparıblar?**

– Ayrı ad qoymuşdular. Guya xarici tələbə və müəllim məsələsi ilə maraqlanırdılar. Əslində isə, səbəb tapşırığın nəticə verməməsi və təzyiq göstərmək idi. Yəni, mən bilirdim, nə məsələdir. Mənə sual verdilər ki, eşitmişik sizin təşkilatda xarici adamlar var. Onlar nə edirlər, nə etmirlər və s. Sorğu-sualdan sonra dedilər ki, sizin universitetdə bir uşaq var, onun vəziyyəti necədir? Dedim, o uşağın vəziyyəti yaxşı deyil, universiteti qurtara bilməyəcək. O tələbəni bizim universitetdən çıxarın, başqa yerə qoyun, orada oxusun və ya oxumasın, diplom alsın.

**– Axırı nə oldu?**

– Axırı o oldu ki, uşaq çıxdı getdi. Başqa bir yerdə oxudu. Bizdən diplom ala bilmədi.

**– Maraqlıdır...**

– Söhbəti ona gətirirəm ki, Xəzər Universitetində oxumadan diplom almaq mümkün deyil. Hətta, Gürcüstandan öz qohumlarım içində elələri oldu ki, bu universitetdə dəfələrlə imtahandan kəsildilər, diplom ala bilmədilər. Gedib ayrı yerdə oxuyub, diplom aldılar. Özü də elə-belə qohum yox, çox yaxın, ailə adamının övladından söhbət gedir. Anlayırsanmı?

Mənim məqsədim belə bir universitet qurmaq olub. Sovet dövründə Kanadaya, İngiltərəyə, Almaniyaya gedirdim, orda universitetlərə həsədlə baxırdım, öz-özümə fikirləşirdim ki, niyə bizdə də belə bir şey olmasın? Sən övladını göndərib Londona, orda bir müəllimdən xahiş edə bilərsən ki, bizim uşağa qiymət yaz, onu yola ver diplom alsın? Mümkün deyil.

Yenə deyirəm, belə bir şey niyə Azərbaycanda da olmasın? İnan ki... İnan deyəndə ki, özün bilmirsənmi Azərbaycanda yaxşı prinsiplərlə yaşamaq istəyən insanlar, alimlər də var? O adamlar indi Xəzər Universitetinə gəlirlər. Yeni Zelandiyadan Azərbaycan əsilli yaxşı bir alim qayıdıb. Gedib Tibb Universitetinə ki, məni işə götürün, Yeni Zelandiyadan gəlmişəm, bu da mənim dünya jurnallarında çap etdirdiyim məqalələr. Deyiblər ki, bizdə yer yoxdur. Mən eşidən kimi o adamı gətirdim Xəzər Universitetinə və soruşdum ki, nə qədər maaş istəyirsən? Lütfən, gəl burda işlə! Dedim, sən birbaşa kafedra müdiri olacaqsan. Laboratoriya yaradacaqsan. İndi Azərbaycanın bütün universitetlərindən həmin sahə üzrə bizdə aparılan elmi seminarlara, yəni, o insanın başına gəlirlər.

**Kəramət Böyükçöl**

*http://news.lent.az/news/268419*
*24 Fevral 2017*

# MODEL UN CONFERENCE AT DUNYA SCHOOL







On February 11-12, Dunya School Model UN Conference was held in Khazar University's affiliate Dunya School. The conference was jointly organized by Dunya School Student Union and "Azəri Yurdu" Youth Public Union. The aim of the conference was to help students shape diplomatic point of view and develop communication and leadership skills. The conference consisted of three committees: 1. UN General Assembly; 2. UN Security Council; 3. UN Economic and Social Council. The conference topics included "Anti-terrorist activities", "Security Situation in Turkey", "International Migration and its Impact on Economic Development".



On February 12, 2017, the closing ceremony of the conference was held. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made a speech and shared his opinion about the conference. Participants of the conference were awarded with certificates.

Nailakhanim Isayeva, co-founder of Khazar University's affiliate Dunya School and Advisor to the Board of Directors and Trustees for Humanitarian and Organizational Affairs, also participated at the conference.



# "DÜNYA" MƏKTƏBİNDƏ MODEL BMT KONFRANSI KEÇİRİLDİ











Fevralın 11-12-də "Dünya" məktəbində "Dünya" Məktəbi Model BMT Konfransı" keçirildi. Konfrans "Dünya" Məktəbi Şagird Birliyi və "Azəri Yurdu" Gənclər İctimai Birliyinin birgə təşkilatçılığı ilə təşkil olunmuşdu. Konfransda şagirdlər, tələbələr və müxtəlif ixtisaslı şəxslər iştirak edirdilər.

Konfransın keçirilməsində məqsəd gənclərin diplomat kimi formalaşması və kommunikasiya, liderlik bacarıqlarının inkişaf etdirilməsidir. Konfrans üç komitədən ibarət idi: BMT-nin Baş Assambleyası; BMT-nin Təhlükəsizlik Şurası; BMT-nin İqtisadi və Sosial Şurası. Konfransda "Terrora qarşı mübarizə", "Türkiyədəki situasiya", "Beynəlxalq miqrasiya və onun iqtisadi inkişafa təsiri" mövzularında müzakirələr aparıldı və iştirakçılar böyük fəallıqla hər məsələyə aid qətnamə hazırladılar.

Fevralın 12-də konfransın təntənəli yekun mərasimi keçirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, konfrans haqqında fikirlərini bölüşdü. Konfrans iştirakçılarına sertifikat, fəal iştirakçılara fərqlənmə sertifikatları təqdim olundu.

Konfransın işində "Dünya" məktəbinin həmtəsisçisi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayeva iştirak edirdi.



## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

# GƏNC ƏDƏBİYYATŞÜNASLAR "İLİN GƏNC ALİMİ" DİPLOMU İLƏ TƏLTİF OLUNDULAR

Yanvarın 31-də AMEA Nizami adına Ədəbiyyat İnstitutunda gənc alimlərin 2016-cı ildəki fəaliyyətinin nəticələrinə həsr olunmuş tədbiri AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq, AMEA-nın yeni inkişaf mərhələsində Ədəbiyyat İnstitutunun gənc əməkdaşlarının da elmi tədqiqat sahəsində uğurlarından bəhs edib.

Nizami adına Ədəbiyyat İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, filologiya üzrə fəlsəfə doktoru, dosent Eşqanə Babayeva təmsil etdiyi elmi-tədqiqat müəssisəsinin gənc alimlərinin 2016-cı ildəki fəaliyyəti barədə hesabat məruzəsi dinlənilib.

AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Famin Salmanov çıxış edərək Ədəbiyyat İnstitutunun gənc elmi işçilərinin ötən ildəki fəaliyyətlərini yüksək qiymətləndirib.

Sonra 2 fevral - Gənclər günü münasibətilə və 2016-cı ilin göstəricilərinə əsasən institutun bir neçə əməkdaşı "İlin gənc alimi" nominasiyası üzrə mükafatlandırılıb. Akademik İsa Həbibbəyli filologiya üzrə fəlsəfə doktorları Lalə Həsənova, Mətanət Vahid və Elnarə Qaragözovanın elmi fəaliyyətini yüksək qiymətləndirərək, onlara institutun təsis etdiyi "İlin gənc alimi" diplomunu, döş nişanını və xüsusi hədiyyəni təqdim edib. Təltif olunanlar çıxış edərək, institut rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



# "GƏNCLƏR ELMİ VƏ BƏDİİ ƏDƏBİYYAT İŞIĞINDA" LAYİHƏSİNİN YEKUN TƏDBİRİ

İsmayıllı rayonundakı "Heydər Əliyev Mərkəzi"ndə "Gənclər elmi və bədii ədəbiyyat işığında" adlı layihənin yekun tədbiri keçirilib.

2016-cı il noyabr ayından etibarən 3 ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun təşkilati dəstəyi ilə İsmayıllı rayonunda "Gənclər elmi və bədii ədəbiyyat işığında" adlı layihənin həyata keçirilməsində əsas məqsəd məktəblilərin elmi və bədii təfəkkürünün inkişaf etdirilməsi, onların elmi yaradıcılıq qabiliyyətlərinin, intellektual potensialının daha da artırılmasından ibarətdir. Bu məqsədlə rayon məktəblərində sorğu-anket, təlim, müsabiqə, sərgi və digər mədəni tədbirlər həyata keçirilmiş, təlimlər, seminarlar təşkil olunmuşdur.

Layihə pilot olaraq üç məktəbdə - İsmayıllı şəhər 1 saylı tam orta məktəbdə, Təzəkənd və Topçu kənd tam orta məktəblərində keçirilib.

Tədbiri İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı - Əməkdar elm xadimi, professor Mirdaməd Sadıqov qonaqları salamlayaraq, layihənin əhəmiyyətini qeyd edib.

Milli Məclisin Elm və Təhsil komitəsinin sədri, AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli institutun ədəbiyyatşünaslıq elminin və ədəbiyyatın inkişafı sahəsindəki fəaliyyətindən bəhs edərək, "Gənclər elmi və bədii ədəbiyyat işığında" layihəsinin bu sahədə böyük əhəmiyyətə malik olduğunu, məktəblilərin elmə və bədii yaradıcılığa həvəsləndirilməsindəki rolunu nəzərə çatdırıb.

Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, layihənin rəhbəri Gülnar Yunusova çıxış edərək, layihə haqqında, onun mahiyyəti və məqsədi haqqında ətraflı məlumat vermiş, eyni zamanda, başa çatmış proqramın mühüm nəticələri və əsas statistik göstəricilərini diqqətə çatdırmışdır. Layihənin təlimçisi fəlsəfə doktoru, dosent Bəsirə Əzizəliyeva layihənin yekun nəticələrini və həyata keçirilmiş təlimlərdə əldə olunan yekunlardan və qarşıda duran vəzifələrdən bəhs etmişdir.

AMEA Nizami adına Ədəbiyyat İnstitututunun "Azərbaycan-Asiya ədəbi əlaqələri" şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor Bədirxan Əhmədov "İsmayıllı ədəbi mühiti" adlı məruzə ilə çıxış edərək, rayonun tanınmış şair və yazıçılarının yaradıcılığını təhlil etmişdir.

Tədbirdə çıxış edən İsmayıllı Rayon Təhsil Şöbəsinin müdiri Rasim Orucov layihənin icrası prosesində yaranan əməkdaşlıq münasibətlərinin yeni nəslin formalaşmasındakı rolunun əhəmiyyətini diqqət mərkəzinə çəkib. Layihənin əsas icraçılarından olan İsmayıllı şəhər 1 saylı tam orta məktəbin direktoru Gündüz Qədirov, Topçu məktəbinin direktoru Xavər Allahverdiyeva, Təzəkənd məktəbinin direktor müavini Ağalar Bədəlov çıxış edərək, layihə çərçivəsində həyata keçirilmiş tədbirlərin təşkilinə göstərilən maraqdan, şagird elmi cəmiyyətinin, ədəbiyyat dərnəklərinin, dərsdənkənar tədbirlərin müasir imkanlarından söz açmışlar.

Tədbirin sonunda layihə çərçivəsində keçirilmiş təlimlərdə iştirak edən 60 şagird sertifikatlarla təltif olunub. İnşa müsabiqəsinin qaliblərinə diplomlar və mükafatlar verilib.

Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən təşkil olunan və sərgidə nümayiş etdirilən 200-dən çox kitab və jurnal "Heydər Əliyev Mərkəzi"nə, məktəb kitabxanalarına və şagirdlərə hədiyyə edilib.



## XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNƏ PROFESSOR ELMİ ADI VERİLDİ

Fevralın 10-da Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi filologiya üzrə elmlər doktoru, dosent Xatirə Bəşirliyə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə professor elmi adı verilmişdir.

## KHAZAR UNIVERSITY INSTRUCTOR AWARDED TITLE OF PROFESSOR

On February 10, the title of professor was awarded to Dr. Khatira Bashirli, instructor for Khazar University Department of Azerbaijani Language and Literature, by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

## NEFT MÜHƏNDİSLİYİ DEPARTAMENTİNİN MÜDİRİ KAPPA - NIN BAŞ DİREKTORU İLƏ GÖRÜŞDÜ

Fevralın 17-də Xəzər Universiteti Neft mühəndisliyi departamentinin müdiri və eiLink Tədqiqat və İnkişaf Mərkəzinin direktoru Qəşəm Zeynalov Fransanın quyuların tədqiqi, neft hasilatının təhlili və modelləşdirilməsinə aid yeni nəsil proqram təminatları üzrə ixtisaslaşmış KAPPA şirkətinin Müstəqil Dövlətlər Birliyi üzrə Baş direktoru Aleksandr Qonçarov ilə görüşdü.

Görüşdə hidrodinamika, geofizika, neft hasilatının təhlili və başqa kompleks modullar üzrə proqram təminatlarının Xəzər Universitetinə verilməsi imkanları müzakirə edildi. Bununla əlaqədar olaraq, Aleksandr Qonçarov KAPPA şirkətinin Baş meneceri Olivier Houze ilə martın sonunda Bakıya nəzərdə tutulan səfərində həmin proqramların təqdimatının keçiriləcəyi və uyğun profilli universitetlərdə qeyd olunan proqram təminatlarının professor və tələbələr tərəfindən lisenziya ilə istifadə edilməsi imkanlarının təfərrüatlarının müzakirə ediləcəyi haqqında məlumat verdi.

## HEAD OF OIL ENGINEERING DEPARTMENT MEETS WITH KAPPA DIRECTOR

On February 17, 2017, Gasham Zeynalov, Head of Khazar University Department of Petroleum Engineering and director of eLink research and development center, met with Alexander Goncharov, Director of the CIS branch of KAPPA. During the meeting, the possibility of endowing Khazar University with software programs for fluid dynamics, geophysics, oil production analysis and other complex modules was discussed. Alexander Goncharev informed the meeting of his upcoming visit to Baku together with Olivier Houze, General Manager of KAPPA, at the end of March to discuss the details of this endowment plan.

## AKADEMİK ZİYA BÜNYADOVA HƏSR OLUNMUŞ AÇIQ DƏRS

Fevralın 23-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova tələbələr üçün tanınmış şərqşünas alim, Sovet İttifaqı Qəhrəmanı akademik Ziya Bünyadovun xatirəsinə həsr edilmiş açıq dərs keçirdi. Tədbirdə Təhsil fakültəsinin tələbəsi Nizami Əlisoy Ziya Bünyadovun həyatı və elmi fəaliyyəti haqqında çıxış etdi.

Sonra AMEA akademik Ziya.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Ərəb ölkələri tarixi şöbəsinin müdiri, Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin direktoru Fərda Əsədov akademik Ziya Bünyadovun elmi nüfuzu və şöhrəti haqqında danışdı.

## İNKİŞAF MƏRKƏZİNİN LAYİHƏ MENECERİ BEYNƏLXALQ TƏDBİRDƏ

Fevralın 17-18-də Xəzər Universiteti İnkişaf Mərkəzinin layihə meneceri Ülkər Bayramova İvane Javaxişvili adına Tbilisi Dövlət Universitetində təşkil olunmuş "Ali təhsil müəssisələrində miqrasiya təhsilinin təşviqi" adlı Erasmus+ layihəsinin ilk idarəetmə tədbirində iştirak etmişdir. Görüşə Alikante Universiteti (İspaniya), Oldenburq Universiteti (Almaniya), Qraz Universiteti (Avstriya), Gürcüstanın müxtəlif universitetlərinin nümayəndələri və digər iştirakçılar qatılmışdılar.

Ülkər Bayramova Xəzər Universitetində yaradılmış "Dünya iqtisadiyyatı və miqrasiya prosesləri" magistr ixtisası və universitetin Miqrasiya Mərkəzi haqqında təqdimatla çıxış etmişdir.

## DEVELOPMENT CENTER PROJECT MANAGER PARTICIPATES IN MANAGEMENT MEETING

On February 17-18, Ulkar Bayramova, Project Manager for Khazar University Development Center, participated in the management meeting of the "Migration Education in Higher Educational Institutions" Erasmus+ project held at Tbilisi State University. The meeting was attended by the representatives of Alicante University (Spain), Oldenburg University (Germany), Graz University (Austria) and staff members from different universities in Georgia. Ulkar Bayramova made a presentation on the Master's Program in World Economics and Migration Processes offered by Khazar University and the university's Center for Migration Studies. Her presentation was received enthusiastically by the audience.

## KARYERA MƏRKƏZİNİN KOORDİNATORU FRANSIZ İNSTİTUTUNUN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞDÜ

Fevralın 21-də Xəzər Universitetinin Karyera mərkəzinin koordinatoru Ülviyyə Hüseynova Fransız İnstitutunun nümayəndəsi xanım Jervez Mate ilə görüş keçirdi. Görüşün məqsədi Fransız İnstitutunun apreldə keçirəcəyi festival xarakterli tədbirlərdə Xəzər Universitetinin fransızdilli tələbələri və könüllülər ilə birlikdə əməkdaşlıq etmək idi.

Bir ay ərzində keçiriləcək tədbirlərdə tələbələrin əməkdaşlıq imkanlarını genişləndirmək və gələcəkdə Fransada bu kimi tədbirlərdə həmin tələbələrin iştirakını təmin etmək haqqında müzakirələr aparıldı.

## CAREER CENTER COORDINATOR MET WITH FRENCH INSTITUTE REPRESENTATIVE

On February 21, Ulviyya Huseynov, coordinator of Khazar University Career Center met with Jervez Máté, representative of French Institute. The aim of the meeting was to discuss possible partnership between these two institutions. The objective of their partnership is to ensure Khazar University students' participation in French Institute's festive events in April. They also discussed the possibility of future cooperation.

## XƏBƏR PORTALINDA PROFESSOR HAMLET İSAXANLI HAQQINDA MƏQALƏ

Fevralın 26-da *Kaspiy.az* xəbər portalında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı haqqında "*Мечта, ставшая явью*" ("Həqiqətə çevrilmiş arzu") adlı məqalə yayımlanmışdır. Müəllifi Azərbaycanın əməkdar jurnalisti Elmira Əliyeva olan məqalədə H. İsaxanlının elmi və ədəbi yaradıcılığından, təhsil təşkilatçısı kimi fəaliyyətindən geniş bəhs edilir.

Məqaləni bu link vasitəsilə oxumaq olar: *http://kaspiy.az/news.php?id=55900*

*(Məqalə yurnalın 42-47-ci səhifələrində dərc olunur).*



# SANA İMRAN: "AZƏRBAYCAN CƏNUBİ QAFQAZIN SÜRƏTLƏ İNKİŞAF EDƏN, TƏHLÜKƏSİZ MÜSƏLMAN ÖLKƏSİDİR"

**Xəzər Universitetinin müəllimi, doktorantı, Pakistanın Azərbaycandakı səfirliyinin hərbi attaşesinin həyat yoldaşı Sana İmranın APA-ya müsahibəsi**

*APA-nın Sana İmran ilə yanvarın 18-də ingiliscə, fevralın 1-də Azərbaycan dilində yayımladığı müsahibəni oxuculara təqdim edirik*

**- Xeyli vaxtdır, Azərbaycanda yaşayırsınız. Bu ölkə haqqında düşüncələriniz nədir?**

- Azərbaycan stabil, sürətlə inkişaf edən və Cənubi Qafqazın, Avrasiya regionunun ən təhlükəsiz müsəlman ölkəsidir. Bu ölkə karbohidrogen ehtiyatları və heyrətamiz landşaftla zəngindir. Azərbaycanın cənub-qərbdən Asiya və cənub-şərqdən Avropanın qovşağındakı coğrafi mövqeyi nəinki Avropa, hətta Asiya üçün çox mühüm əhəmiyyət kəsb edir. "Odlar Yurdu" Azərbaycanın dünyaya ləyaqətlə təqdim edə biləcəyi zəngin tarixi və mədəni irsi var. Azərbaycan xalqı olduqca mehriban və qonaqpərvərdir. Bu ölkə, digər dinlərdən və məzhəblərdən olan insanlara qarşı böyük tolerantlıq nümayiş etdirən əhaliyə və dünyəvilik dünyagörüşünə malik müsəlman ölkəsidir. Bu plüralist və multikultural davranış Azərbaycan cəmiyyətinin ən böyük güc qaynağıdır. Azərbaycanın güclü iqtisadiyyatı var, bu iqtisadiyyat əsasən neft gəlirlərindən qaynaqlanmaqdadır, lakin son vaxtlar qeyri-neft sektorunda gözlə görülə bilən inkişaf tendensiyası yaşanır. Ayrıca, ölkə turizm və sənaye sektorlarında daha böyük addımlar atıb.

**- Sizin təhsil tarixçəniz necədir? Nə səbəbdən araşdırma sahəsi olaraq, Azərbaycanı seçdiniz?**

- Pakistanda marketinq sahəsində biznesin idarə olunması üzrə magistr dərəcəsinə sahibəm. Vətənimdə çoxsaylı tanınmış universitetdə marketinq sahəsi üzrə yetərli tədris təcrübəm var. Bundan öncə isə tanınmış bir bankda bir neçə il müddətində icraedici vəzifələrdə çalışmışam. 2014-cü ildə həyat yoldaşımın diplomatik təyinatı ilə əlaqədar Azərbaycana gəldim. Azərbaycan yaşamaq üçün gözəl məkandır.

Pakistan və Azərbaycan arasında qarşılıqlı hörmət, etimad və xoş niyyət mövcuddur və bu özünü həm dövlət, həm də digər səviyyələrdə büruzə verir. Hətta bunu Bakıda qaldığım ilk gündən bəri hərtərəfli nəvazişlə qarşılaşdığım üçün öz təcrübəmdə hiss etdim. Tədqiqat işimdə əsas diqqət "Milli kimliyin formalaşmasında markaların rolu" mövzusunu analiz etməkdir. Azərbaycan milli brendləşmə ilə bağlı ən yaxşı modeli təqdim etməkdədir. Bu ölkənin potensialından ilhamlanaraq, Azərbaycanı araşdırma sahəm olaraq seçdim. Azərbaycan dinamik iqtisadiyyatı, tolerant cəmiyyət və mədəni müxtəliflik səbəbiylə hər keçən gün dünyada daha da inkişaf edir. Əslində bu, yenicə yaranan uğur hekayəsinin ən yaxşı şəkildə inkişaf etməsidir. Azərbaycan hökuməti prezident İlham Əliyevin rəhbərliyi altında «Azərbaycan brendi» təşəbbüsünü dəstəkləməkdədir.

Elmi tədqiqat işimlə inkişaf etməkdə olan təhlükəsiz, tolerant və irəliyə yönümlü Azərbaycanın həyatın müxtəlif sferalarında bərabər dərəcədə tərəqqi əldə edə biləcəyini araşdırmaq istəyirəm. Son bir neçə ildə Azərbaycan tərəfindən beynəlxalq səviyyədə çox sayda nəhəng tədbirlər keçirilib. Misal olaraq, "Eurovision" Mahnı Müsabiqəsi-2012, 1-ci Azərbaycan Müdafiə Sərgisi (ADEX) -2014, Avropa Oyunları -2015, Beynəlxalq Şahmat Olimpiadası-2016, Avropa Grand Pri Formula-1 Yarışması, 2016, 2-ci ADEX-2016 və qarşıdan gələn İslam Həmrəyliyi Oyunları -2017 Azərbaycanın imicini beynəlxalq aləmə çatdırmaqda böyük rol oynayıb. 2016-cı ildə isə turizmin nəzərə çarpacaq dərəcədə inkişafı yuxarıda sadaladığım tədbirlərlə bağlıdır.

İqtisadiyyatın şaxələndirilməsi düzgün istiqamətdə atılan digər bir addımdır. Bu, aşağı neft qiymətlərinin və ya neft iqtisadiyyatının neqativ təsirlərinin azaldılmasına yardımçı olacaq. Yerli sənaye düzgün bir şəkildə inkişaf etdirilərsə, rəqabət üstünlüyünə sahib olan məhsulların istehsal edilməsinə kömək olar. Bu qəbildən olan keyfiyyətli milli markalar regional və ya qlobal bazarlarda öz əksini tapmaqla Azərbaycan kimliyini təşviq etməyə yardımçı olacaq. Qeyri-neft sektorun inkişafı ilə birlikdə sənayenin gücləndirilməsi, ixrac bazasının

genişləndirilməsi, turizm təşəbbüslərinin təşviqi, hərtərəfli iqtisadi islahatların həyata keçirilməsi vacib məsələlərdəndir. Eynilə, insan kapitalının inkişafı, Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrin nailiyyətlərini möhkəmləndirmək üçün də çox vacibdir.

**- Milli kimlik nədir? Bunun anlamını necə izah edərsiniz?**

- Müasir mühitdə millətlər beynəlxalq aləmdə milli markaların səmərəli şəkildə yayılması vasitəsilə tanınır. Markalar milli kimliyin formalaşmasında diplomatiya və müdafiə, iqtisadiyyat və ticarət, moda və sənaye kimi sahələrə təsir göstərməkdədir. İnkişaf etməkdə olan ölkələr milli kimliklərini təşviq etmək üçün markalardan səmərəli şəkildə istifadə edə bilər. Xüsusi diqqətlə hazırlanan reklamlar və hərtərəfli düşünülmüş media kampaniyaları ümumilikdə marka məhsullarını uğurlu marketinq təkliflərinə çevirir. İnkişaf edən Azərbaycan dövlətinin düzgün imicinin dünyada təşviq edilməsi üçün bir sıra milli brendləşmə təşəbbüslərinə start verilib. Bu təşəbbüslərdən sadəcə bir neçəsini misal gətirmək olar: "Heyrətamiz Azərbaycan", "Azərbaycan-Odlar Diyarı", "Made in Azerbaijan" və s.

**- Siz hansı Azərbaycan markalarından elmi-tədqiqat işinizdə istifadə edəcəksiniz?**

- Faktiki olaraq hazırda Azərbaycanın özünə aid az sayda markaları mövcuddur. Lakin iqtisadiyyatın şaxələndirilməsi nəticəsində millət brendləşməsi üçün bir sıra nüanslar ortaya çıxmaqdadır. Azərbaycan adətən özünün narı, alması, ipək şalı, xalçası, muğamı, ənənəvi geyimləri və sadə zərgərlik məhsulları ilə tanınır. Azərbaycanın şimal-şərq bölgələrinin heyrətamiz mənzərələri və "Küləklər şəhəri" Bakının gözəl mənzərəsi Azərbaycanı seçilən bir turistik yer halına gətirməkdədir. Azərbaycanın dünya səviyyəli tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın müstəsna idarəetmə qabiliyyətini ortaya çıxarıb. Viza rejiminin sadələşdirilməsi ilə birlikdə bu tədbirlər Azərbaycan iqtisadiyyatı üçün böyük gəlirlər gətirən turizm sektorunu da dəstəkləyib.

Burada neft-kimya sahəsində və əlaqəli məhsullarda Azərbaycan brendi olan SOCAR-ın adını qeyd etmək istərdim. SOCAR Azərbaycan bayrağını həm regionda, həm də regiondan kənarda böyük fəxr hissi ilə dalğalandırır. Dövlət neft nəhəngi Azərbaycanın imicini Türkiyə, Gürcüstan, Rusiya, Orta Asiya və hətta İngiltərədə təşviq etməyə çalışır. Şübhəsiz, SOCAR neft-kimya sənayesində Azərbaycanın tanınmış brendidir.

Azərbaycan imicini xaricdə təşviq etmək üçün müntəzəm olaraq mədəni tədbirlər keçirən Heydər Əliyev Fondundan bir başqa canlı nümunə göstərmək olar. Bu qurum xeyriyyəçi və sosial rifah sahələrindəki fəaliyyəti ilə dünyanın dörd bir yanında Azərbaycan üçün nəcib imicin formalaşmasına kömək edir. Özəl sektorda "Paşa", "Gilan" və "Azersun" kimi mega şirkətlər Xəzər bölgəsində və xaricində Azərbaycan markalarının təşviqinə öz müsbət töhfəsini verməkdədir. Azərbaycanda xalça sənayesinə toxunulmasa, ədalətsizlik olar. Azərbaycan xalça sənayesinin bu səviyyəyə gəlməsində uzun bir yol qət edib. Azərbaycanın digər bir fərqli kimliyi onun ənənəvi zərgərlik nümunələridir.

Qısaca desək, Azərbaycan mənim tədqiqat işim üçün inkişaf etməkdə olan bir hekayədir. Azərbaycan milli kimliyinin formalaşmasında faydalı ola biləcək bütün markaları araşdırmaqda maraqlıyam. Qəbul etdiyim metodologiya AZPROMO, Made in Azerbaijan təşəbbüsü, SOCAR, Xalça Muzeyi kimi qurumların rəhbərləri, aidiyyəti hökumət rəsmiləri və digər özəl sahibkarlarla onların gələcəkdə milli brendləşmədə tətbiq edəcəkləri strategiya haqqında lazımi məlumatı toplamaqdan ibarətdir. Bu, yalnız məhsullar və ya markalarla məhdudlaşmır. "ASAN Xidmət", "AZAL" və digər sahələrdə Azərbaycanın xidmət sənayesi ilə bağlı misalları genişləndirmək mümkündür. Bu, mənim üçün sıx bir təqvim ilinin olacağı anlamına gəlir.

**- Nə qədər vaxtdır Azərbaycandasınız?**

- İki ildir buradayıq. Həyat yoldaşım Azərbaycanda üç il müddətinə diplomatik vəzifəyə təyin olunub. Bu müddət bir il də uzadıla bilər. Vaxtımızın təxminən yarısı qalıb. Səlahiyyət müddəti ilə bağlı məhdudiyyətlərə baxmayaraq, Azərbaycanda olmaqdan məmnunuq. Tədris etməyi çox sevirəm və 2015-ci ilin yanvarından Bakıda Xəzər Universitetində BBA və MBA tələbələrinə dərs deyirəm. Bundan başqa, eyni universitetdə doktorluq işi üzrə tələbə olaraq tədqiqat aparıram. Ümid edirəm ki, 2017-ci ilin birinci rübünün sonunda dissertasiya işimi müdafiə üçün təqdim edəcəyəm.

**- Buraya gəlmədən öncə Azərbaycan haqqında nələri bilirdiniz?**

- Dürüst olmaq lazımdırsa, Azərbaycanda qarşılaşacağım vəziyyətə dair bir çox nüansı əvvəllər bilmirdim. Hava limanında hiss etdiyim xoş təəccübümü hələ də xatırlayıram. İndi bura mənim və ailəm üçün vətənimizdən uzaq vətənimizə çevrilib. İlk gəldiyimiz zaman Azərbaycan bizim üçün ağ bir səhifə idi, indi isə bir sıra maraqlı təcrübə ilə doludur.

**- Azərbaycan və Pakistan rəsmi səviyyədə çox yaxın dostdurlar. Pakistan xalqı Azərbaycan haqqında nə düşünür?**

- Pakistan və Azərbaycan arasında mükəmməl siyasi əlaqələr mövcuddur. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Pakistan Senatı Xocalı faciəsini şiddətlə qınayan və bu qırğını "soyqırımı" kimi adlandıran və tanıyan ilk qurumlardandır. Pakistan Dağlıq Qarabağ bölgəsində Azərbaycan torpaqlarının qanunsuz işğalına görə Ermənistan ilə heç bir diplomatik əlaqə qurmayan yeganə ölkədir. Pakistan Azərbaycanı bütün regional və beynəlxalq təşkilatlarda usanmadan dəstəkləyir və Dağlıq Qarabağ məsələsinin mövcud BMT qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına inanır. Çox

yaxın iki hökumət olaraq da iki qardaş müsəlman ölkənin xalqları da bir-birinə çox yaxındır. Bu dostluq dəfələrlə zamanın bir çox sınağından keçib. Pakistan prezidenti 2015-ci ilin martında və baş naziri 2016-cı ilin noyabrında Azərbaycana səfər edib. Azərbaycan baş nazirinin 1-ci müavini 2016-cı ilin noyabrında Pakistana səfər edib və indi isə Azərbaycan prezidenti İlham Əliyevin bu ilin fevral ayında Pakistana rəsmi səfəri gözlənilir. Yüksək səviyyəli səfərlər mübadiləsi müxtəlif sahələrdəki qarşılıqlı əməkdaşlığı daha da yeni səviyyələrə yüksəltməkdədir.

**- Pakistan və Azərbaycan arasında hansı əsas oxşar cəhətlər mövcuddur?**

- Azərbaycan və Pakistan tarixi əlaqələri, mədəni yaxınlıqları və sosial oxşarlıqları ilə bənzərdir. Eyni dindən və dəyərlər sistemindən gələn iki ölkə bir-birlərinə yaxından bağlıdır. Pakistan və Azərbaycanın geostrateji mövqeyi onları daha çox əhəmiyyətli edir. Pakistan Cənubi Asiyaya, Azərbaycan isə Avropaya giriş qapısı sayılır. Pakistan son 70 ildə Kəşmir məsələsi ilə bağlı mübarizə apararkən, Azərbaycan 1991-ci il müstəqilliyindən bəri Dağlıq Qarabağ problemi ilə qarşı-qarşıyadır. Kəşmir əhalisinin öz müqəddəratını təyin etmə hüququnu və Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki torpaqlarının erməni nəzarətindən azad olunmasını təsdiq edən BMT qətnamələri mövcuddur. Bütün bu BMT qətnamələri, vasitəçilər və ya beynəlxalq ictimaiyyətin təpki göstərməməsi səbəbilə hələ də yerinə yetirilməməkdədir. Həm Kəşmir, həm də Dağlıq Qarabağ Pakistan və Azərbaycanın təhlükəsizliyinə ən ciddi təhdiddir. Hər iki müsəlman ölkəsinin mütərəqqi, sülhsevər və parlaq gələcəyi var. Pakistan və Azərbaycan eyni mədəniyyət çətiri altında olan ölkələrdir. Yaşam tərzi, zehniyyət, yaşlılara hörmət, ailə və dəyərlər sistemi, demək olar ki, eynidir. Mətbəxə gəlincə, pakistanlılar ət və ədviyyatlı qidalardan bolluca istifadə edirlər. Baxmayaraq ki, azərbaycanlılar ədviyyatlı məhsullardan az miqdarda istifadə edirlər, lakin ətli yeməkləri çox sevirlər. Bu səbəbdən də bura gələndə bu ortaq cəhətlər bizim işimizi daha da asanlaşdırdı. Dil baryerinə baxmayaraq, mədəniyyət şoku yaşamadan asanlıqla Azərbaycana uyğunlaşa bildik.

**- Azərbaycanın regionlarında olmusunuzmu? Regionlarımıza aid hansı xüsusiyyəti öz tədqiqat işinizdə qeyd etməyi düşünürsünüz?**

- Azərbaycanın, demək olar, bütün regionlarına səfər etmişəm. Biz Qax, Gəncə, Qəbələ, Şəki, Qusar və Şahdağda olmuşuq. Bütün bu yerlərə səyahət etmək çox xoş idi. Diqqətimizi ən çox cəlb edən Azərbaycanın mədəniyyət paytaxtı sayılan Şəki şəhəri idi. Görünür, Azərbaycan mədəniyyəti İpək Yolu tarixindən bu yana estetik bir şəkildə Şəkidə qorunub, saxlanılıb. Ola bilsin ki, Azərbaycanın regionlarından öz tədqiqat işimdə bəhs etməyim. Lakin tədqiqat işimdə Azərbaycanın inkişaf edən turizm potensialı əksini tapacaq. Bölgələrlə bağlı detalları qeyd etməyə qərar versəm, marka olan bölgələrin məhsullarını sadəcə bölgələrə aid etmək əvəzinə, Azərbaycan məhsulları olaraq qeyd etməyi seçərəm. Misal olaraq, Qubanın alması və ya Göyçayın narı dedikdə bu, Azərbaycanın alması və ya narı hesab olunacaq. Milli kimlik haqqında bəhs etdiyim zaman, bölgələrin deyil, millətin kimliyindən söhbət gedir. Bu, müəyyən bir ölkənin imicinin beynəlxalq səviyyədə tanıdılması məsələsidir. Materialımda bəzi məhsullardan söz açılsa, bu məhsulların bölgəsi və ya mənşəyi haqqında bəhs etməyəcəyəm, Azərbaycanın məhsulları olmasını vurğulayacağam.

**- Qeyd etdiyiniz kimi, Xəzər Universitetində müəllimlik fəaliyyəti ilə məşğul olursunuz. Azərbaycan tələbələri haqqında düşüncələriniz nədir?**

- Azərbaycanlı tələbələrin daha yaxşı işlər görmək üçün yüksək potensialı mövcuddur. İstənilən nəticələri əldə etmələri üçün istedadları önə çıxarılmalı, imkanları inkişaf etdirilməlidir. Onlar Azərbaycanı beynəlxalq forumlarda qürurla təmsil etmək üçün mükəmməl performans nümayiş etdirə bilərlər.

Bu qəbildən olan bir misalı sizinlə paylaşmaq istərdim. Xəzər Universitetindən mənim rəhbərliyim altında təlim görmüş bir qrup tələbə bu ilin yayında ABŞ-da təşkil olunmuş beynəlxalq bir təşəbbüsdə iştirak etdi və 94 iştirakçı universitet arasında üçüncü yerə çıxdı. "P2P Ektremizm Proqramına Çağırış" proqramı ABŞ Dövlət Departamentinin və ABŞ-ın Azərbaycandakı Səfirliyinin dəstəyi ilə hər üç aydan bir keçirilir. Xəzər Universitetinin "Düşünən Komandası" ekstremist meylləri qəlblərimizdən və cəmiyyətimizdən uzaq tutmaq üçün bir kampaniya hazırladı və təqdim etdi. Hər kəsin gərgin işi və səyi nəticəsində kampaniya ilk üç finalçı arasından seçildi və daha sonra keçən yay Vaşinqtonda komandamız tərəfindən təqdim olundu. Bu yarışmada 3-cü yerə layiq görüldük. ABŞ-dan olan universitet 1-ci, Belçikadan olan universitet isə 2-ci oldu. Bu, azərbaycanlı tələbələrin istedadlı və qabiliyyətli olduğunun göstəricisidir. Bütün bunlara rəğmən Azərbaycanın təhsil sistemində inkişaf üçün daha yaxşı imkanların olması labüddür.

**Məlahət Nəcəfova**

***http://apa.az/xarici_siyaset/sana-imran-azerbaycan-cenubi-qafqazin-suretle-inkisaf-eden-tehlukesiz-muselman-olkesidir.html***

# PROFESSOR HAMLET İSAXANLI "DÜNYA" MƏKTƏBİNDƏ MÜHAZİRƏ OXUDU



Fevralın 28-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Dünya" məktəbinin şagirdləri ilə görüşü keçirildi. Görüşdə "Dünya" məktəbinin həmtəsisçisi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayeva, məktəbin müəllim və şagirdləri iştirak edirdilər.

"Dünya" məktəbində ənənəvi "Riyaziyyat fənn ayı" çərçivəsində keçirilən görüşdə H. İsaxanlı "Cəbri tənliklərin həlli tarixindən (9-cu əsrdən 19-cu əsrin əvvəllərinə qədər" mövzusunda mühazirə oxudu.

Məktəbin kollektivi H. İsaxanlını 1 mart-ad günü münasibətilə təbrik etdi.







# XOCALI SOYQIRIMI YAD EDİLDİ





Fevralın 22-də Xəzər Universitetində Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə Xocalı faciəsinin 25 illiyinə həsr olunmuş tədbir keçirildi. Tədbirdə Xəzər Universitetinin rektoru Hassan Niknafs, universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı, İctimaiyyətlə əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, həmin departamentin müəllimi, tarixçi alim Nəsiman Yaqublu, Xocalı faciəsinin canlı şahidləri və tələbələr iştirak edirdilər.

Tədbirdə Xocalı faciəsi və onun dəhşətləri barədə iştirakçılara ətraflı məlumat verildi və Nəsiman Yaqublunun "Xocalı soyqırımı" kitabı təqdim olundu. Tədbir ərzində Xocalı faciəsinin canlı şahidi olmuş zabit Seyidağa Mövsümlü öz xatirələrini bölüşdü və daha sonra onun lentə aldığı Xocalı həqiqətlərini əks etdirən qısa film tədbir iştirakçılarına təqdim olundu.

Təhsil fakültəsinin tarix ixtisasının tələbələri - İlahə Yusifli "Xocalının təbliğatı", Rüfət Xəlilov "Dünya mətbuatı Xocalı haqqında nə yazır?", Kifayət Abıyeva "Xocalı haqqında saytlar (aktiv və passiv)" və Aysel Mənsimova "Xocalı soyqırımını tanıyan dövlətlər" adlı təqdimatları ilə çıxış etdilər.

Tədbirdə prorektor İsaxan İsaxanlı çıxış etdi.



# KHAZAR UNIVERSITY COMMEMORATES KHOJALY TRAGEDY VICTIMS

On February 22, Khazar University Department of History and Archelogy organized an event in commemoration of the 25th anniversary of the Khojaly Tragedy. Faculty and staff members participating in the event included Hassan Niknfas, President of the University; Isakhan Isakhanli, Vice-Rector for Adminitration and Student Affairs; Alovsat Amirbayli, Media and Public Relations Director; Roza Arazova, Head of the Department of History and Archeology; Nariman Yusublu, instructor for the aforementioned department; students and survivors of the tragedy.

Participants were informed about the Khojaly tragedy, and Nasiman Yagublu presented his book *Khojaly Massacre*.

During the event, Seyidaga Movsumlu, eyewitness to the tragedy, shared his memories with participants; his short film about the tragedy was shown.

The following students of the School of Education made presentations: Ilaha Yusuflu on "Khojali Campaigns"; Rufat Khalilov on "The Khojali Tragedy in the World Media"; Kifayat Abiyeva on "Sites on the Khojali Tragedy (active and passive)"; and Aysel Mansumova on "The Countries Recognizing the Khojali Tragedy".

At the end of the event, Isakhan Isakhanli, Vice-Rector for Adminitration and Student Affairs, made a speech.







Каспiй online

# МЕЧТА, СТАВШАЯ ЯВЬЮ



## Гамлет Исаханлы - математик, философ, поэт…

***Если вы хотите вести счастливую жизнь, вы должны быть привязаны к цели…***

**Альберт Эйнштейн**

**Каждая область человеческой деятельности на определенном этапе словно призывает личность, которая способствует бурному развитию этой области, превращая ее в нечто качественно новое. Одной из таких личностей стал, несомненно, и наш современник, выдающийся организатор науки и образования, доктор физико-математических наук, профессор Гамлет Исаханлы, человек, которого по праву считают одним из созидателей духовного и научного богатства азербайджанского народа.**

Естественно, я была наслышана об этом талантливом ученом, прославившим себя еще и тем, что в 1990-1991 годах, то есть еще в бывшем Советском Союзе, основал в нашей республике первый в СССР частный англоязычный университет, завоевавший впоследствии, уже когда Азербайджан обрел долгожданную независимость, широкую известность в мире под названием Хазар, который он и возглавил в качестве ректора.

Однако видела я Гамлета Исаханлы лишь дважды, и то мельком: на его встрече - научном семинаре с приехавшими из Англии специалистами, состоявшейся в университете, и недавно, на юбилее газеты «Каспій», оказавшись с ним за одним столом. Помню свое первое впечатление о ректоре, поразившем меня абсолютно свободным общением с гостями из Лондона на их родном языке. Решив побольше узнать о нем, с интересом следила за прессой, которая не обходила ученого вниманием, смотрела телепередачи с его участием…

Впрочем, теперь, после нашей с ним недавней, состоявшейся по моей инициативе встречи в одном из зданий университета Хазар на 8-м километре, которую считаю подарком судьбы, и беседы, длившейся более двух с половиной часов, я поняла, что все, что мне было известно о профессоре Исаханлы, - лишь малая толика того, что можно рассказать об этом уникальном человеке…

Говорят, самая тяжелая работа - та, которую не решаешься начать.



Листая свой блокнот с короткими записями, перебирая в памяти все услышанное, а потом и прочитанное в изданных о нем книгах, я, проникнутая чувством восторга и огромного уважения к этому удивительно скромному, немногословному обладателю энциклопедических знаний, долго думала: с чего же начать свое повествование?

Ответить на этот вопрос помогла книга «Что в этот мир принес я?», вышедшая в свет на азербайджанском и русском языках еще в 2005 году. Спасибо ее авторам - Князю Аслану и Вахиду

Омарли, сумевшим в этом небольшом издании охватить жизнь и многогранную деятельность своего героя, человека, конечно же, наделенного божьим даром, во всех сферах деятельности достигшего неординарных успехов…



…Считается, что «ot kökü üstə bitər». Я уверена: это действительно так. Думаю, все, чего добился в своей жизни Гамлет Исаханлы, в немалой степени связано и с тем, в какой семье он родился и рос, кто его первые наставники. И тут следует, видимо, вспомнить прежде всего о том, что мой герой - внук и поныне известного в Грузии, где издавна жили представители этого рода, храброго повстанца Исахана Гаджибайрамлы - гачаг Исахан, как его называли.

В 1929 и 1930 годах он возглавил вооруженное восстание против советского режима, сражался смело и доблестно, защищая права крестьян. Его храбрость и непримиримость воспевали ашуги, ему посвящали дастаны. Материалы архивов свидетельствуют о том, какой страх наводил этот азербайджанец из Караязы (Гардабани) на большевиков Закфедерации, не раз предпринимавших попытки убрать его с пути, что в конце концов и было сделано: однажды гачаг Исахан исчез бесследно. А близкие его - жена (бабушка нашего героя) Зейнаб с детьми и другими родственниками были сосланы в Казахстан, братья же, меньшевики, уехали в Турцию - там по сей день и живут их потомки…

Неукоснительным авторитетом и уважением односельчан пользовался и отец будущего ученого, интеллигент - так его величали - Абдулла Исаев, старший сын (третий из четырех детей) Исахана. После Тбилиси, где ему посчастливилось учиться у своего замечательного соотечественника Заида Халилова, математика от Бога, человека, которому принадлежит заслуга в решении теоретических вопросов по главным направлениям современной математики, в частности важнейшего из них - функционального анализа, Абдулла Исаев преподавал математику в средней школе села Косалы Гардабанинского района Грузии, где и появился на свет Гамлет.

Возможно, культ математики в семье и сыграл решающую роль в выборе Гамлетом профессии. Однако, как он рассказывает, отец всегда желал видеть его математиком, занимающимся наукой, мечтал, чтобы сын стал ученым. И как свидетельствуют дальнейшие события, Гамлет Исаев успешно осуществил отцовский наказ, сделав его мечту явью.

Вот краткая хроника жизненного пути будущего исследователя:

Средняя школа в родном селе, где он так успешно учился, что его дважды за десять школьных лет хотели, перескочив через класс, перевести в следующий. Но отец мальчика, Абдулла муаллим, считал это ненужным.

Окончив десятилетку с золотой медалью, юноша отправился в Баку, где поступил на механико-математический факультет Азгосуниверситета (ныне БГУ). Учебу здесь завершил в 1970 году, когда ему было 22 года, и тоже с отличием. По распределению он должен был проработать в Губинском районе, однако, скоро он всецело посвятил себя науке.



Следующие почти три года были посвящены работе над кандидатской диссертацией в аспирантуре Московского государственного университета имени М.В.Ломоносова. Получив в 25 лет степень кандидата физико-математических наук, начал активную исследовательскую деятельность в Институте механики и математики Академии наук Азербайджана, в Московском государственном университете имени М.В.Ломоносова, Институте

математики имени В.А.Стеклова в Москве, где в 1983 году он, автор уже целого ряда фундаментальных трудов по математике, успешно защитил диссертацию на соискание ученой степени доктора физико-математических наук.




Надо сказать, что наш соотечественник, известный в математических кругах мира как Гамлет Исаев, по мнению ученых мирового уровня, значительно обогатил математическую науку, внеся в нее новые понятия, создав математические теории, доказав новые теоремы. Это и принесло ему всемирную славу, став основанием для избрания членом правления престижных международных организаций и членом академий. Как ученый-математик он еще в период существования Советского Союза читал лекции, работал в самых престижных университетах передовых стран мира, печатал статьи в иностранных научных журналах. Все это и побудило тогда еще молодого ученого, в языковом арсенале которого уже был неплохой французский, к глубинному изучению еще и английского языка, на котором сейчас он говорит и пишет свободно.

С огромной гордостью за азербайджанский народ, взрастивший такого сына, знакомлюсь с выдержками из отзывов ряда выдающихся математиков мира о нашем ученом, чьи научно-исследовательские работы были включены в списки наилучших в ежегодных отчетах еще Академии наук СССР.

Вот лишь некоторые из этих отзывов, относящиеся, в основном, к 80-м годам прошлого столетия:

**П.Дж.Браун, Университет Калгари, Канада:**

«…В бакинском Институте механики и математики очень успешно и плодотворно работает группа, руководимая доктором физико - математических наук Гамлетом Исаевым… Мы изыскали возможность пригласить доктора Г.Исаева в Калгари и начать сотрудничать с ним. Мы извлекли очень большую пользу из его лекций, его кратковременный визит внес большой вклад в нашу научно-исследовательскую жизнь».

**Профессор Ф.Аткинсон, Университет Торонто:**

«Ценнейшие результаты в области многопараметрической спектральной теории получили за последние годы Гамлет Исаев и его ученики… Он является одним из создателей этой теории…»

К слову сказать, профессор Аткинсон, патриарх названной теории, пригласив нашего соотечественника в Торонто, организовал математическую конференцию в его честь. Наверное, правы те, кто называет эту конференцию началом славы на Западе знаменитого азербайджанского математика.

**А.Садовничий, профессор, лауреат премии имени Ломоносова, ректор Московского государственного университета:**

«Многопараметрическая спектральная теория - одна из интересных и трудных областей функционального анализа… Результаты, полученные в этой области Г.А.Исаевым, оставили далеко позади исследования многих зарубежных ученых».



**Академик В.Владимиров, директор Института математики имени В.А.Стеклова АН СССР:**

«Исаев Г.А. является известным специалистом по функциональному анализу. Его работы пользуются известностью за рубежом, его выступления заслужили одобрения специалистов».

«Эрудированным математиком, умеющим ставить и решать новые интересные задачи, изобретательно преодолевая возникающие трудности» назвал Гамлета Исаева **лауреат Государственной премии, профессор А.Дезин.**

Отметил огромные научные заслуги азербайджанского ученого также **профессор МГУ, лауреат премии Ломоносова А.Костюченко** и многие другие известные математики.



И еще. Не могу обойти молчанием и факт признания нашего соотечественника создателем школы по современной спектральной теории операторов, математического аппарата квантовой механики - а это уже атомная физика…

Я могла бы привести еще целый ряд высказываний, но подумала: разве же недостаточно и уже приведенных мною для того, чтобы осознать, какой же огромный вклад в развитие мировой математической науки внес наш с вами соотечественник!

…Все прочитанное и услышанное об ученом Гамлете Исаеве навело меня на мысль о том, что достижения человека не могут быть только результатом данного ему свыше таланта. Ведь талантливых вокруг нас немало. Но далеко не всякий достигает высот. Нет, дело тут, конечно же, в другом. И прежде всего - в умении подкрепить подаренное Всевышним неутомимым трудом, настойчивым, целеустремленным, таким, когда каждое дело исполняется тобой как последнее в жизни.

Именно так, руководствуясь девизом «Каждый день, каждый час на пути к совершенству», сформулированным самим моим героем, он и живет…

Гамлет Исаев интересен нам не только как большой ученый, известный в мире как создатель новых теорий в области математики, автор интересных исследований. Он - прекрасный организатор науки и образования. Именно ему, как уже отмечалось, принадлежит заслуга в создании первого в нашей тогда большой стране частного англоязычного университета, который, став одним из истинных центров науки и образования, добился международного признания дипломов своего вуза.

Ныне этот университет, существующий уже более 25 лет, завоевал довольно высокий авторитет, и в первую очередь - благодаря качеству получаемого здесь образования. Диплом Хазара стал воистину гарантией высокой квалификации его выпускника, какую бы специальность он ни получил здесь: ведь в университете действует несколько факультетов - инженерных и прикладных наук, экономики и менеджмента, гуманитарных и социальных наук, образования. Учатся здесь, кроме граждан Азербайджана, представители бывших советских республик, а также молодые люди из Восточной, Западной и Центральной Европы, из азиатских стран, к примеру, из Кореи, Индии, из Африки и т.д. А преподают им наряду с местными и приглашенные из-за рубежа специалисты: ведь преподавание, за редким исключением, ведется на английском языке.

По инициативе ректора (ныне: Председатель Совета Директоров и Попечителей) вуза здесь применяются самые передовые идеи образования и обучения. Все это способствует созданию в университете атмосферы, способствующей научному мышлению, стремлению к знаниям. Хазар - это высшее учебное заведение, где царят интеллект, духовное общение, честность, объективность, дисциплина и порядок, что отмечали в свое время побывавшие здесь историк из США, профессор Тадеуш Святоховский, посол Великобритании в Азербайджане Томас Янг и другие. Не в этом ли секрет популярности этого учебного заведения, даже несмотря на платное здесь обучение?!



Надо сказать, что сотни, да-да, именно сотни студентов этого вуза продолжают учебу в самых престижных университетах мира. А выпускники его работают не только в Азербайджане, но и за рубежом, получая высокую зарплату. Отмечу и то (если честно, никогда не слышала о таком), что студенты старших курсов Хазара могут уже заранее заключить выгодный контракт с будущим работодателем. Ведь это же так здорово!

Университет Хазар выпускает в созданном

здесь издательстве книги, журналы, сборники переводов, которые распространяются за пределами нашей страны, вызывая интерес не только к этому высшему учебному заведению на берегу Каспия, но и в целом к Азербайджану.



Что еще очень важно? Наверное, то, что Хазар завоевал еще и славу центра культуры, искусства и спорта. Здесь во всем чувствуется стремление к сочетанию интеллектуального развития с духовным, а также физическим самосовершенствованием. И во главе всего этого - Гамлет Исаханлы. Он и сам с величайшим интересом участвует вместе со студентами в изучении творческого наследия азербайджанского народа. В связи с этим в университете нередко проводятся симпозиумы, вечера, посвященные классикам азербайджанской поэзии и музыки, а также встречи с представителями современного искусства. Кстати, в самом университете создан ансамбль песни и пляски, который успешно выступает за рубежом. Принимая участие, к примеру, в фестивалях в ряде стран, всегда возвращается с наградами.

Особое место в Университете Хазар занимает спорт. Думаю, потому еще, что и сам ректор, как говорят, - заядлый шахматист и любитель футбола. Не раз футбольная, баскетбольная и шахматная команды университета прославляли свое учебное заведение, добиваясь победы в соревнованиях…

И еще об одном. При Университете Хазар действует средняя школа «Дунья мектеби»: неугомонный Гамлет Исаханлы продолжает созидательную деятельность, воплощая свои идеи и в системе среднего образования. И воплощая весьма успешно! Потому, наверное, «Дунья мектеби» была названа Президентом Азербайджанской Республики Ильхамом Алиевым в числе лучших средних школ страны.

Учитывая заслуги Гамлета Исаева, пользующегося в республике высоким авторитетом организатора науки и образования, в свое время, когда при Президенте еще существовала комиссия по образованию, его, основателя университета, получившего международную известность, единственного среди ректоров вузов избрали членом этой комиссии…

И все же, почему именно Гамлет Исаев первым выступил инициатором создания высшего учебного заведения совершенно нового типа? Попытаюсь ответить на этот вопрос…

Ну, во-первых, он - ученый, много ездивший по миру, знакомый с организацией высшего образования в известных вузах самых передовых стран. Будучи исследователем по натуре, изучал, анализировал важные специфические особенности европейских университетов - Оксфордского, Кембриджского, Московского государственного университета, Сорбонны, а также немецких - Берлинского, Геттингенского, далее, ведущих американских и др. Сравнение во многом было, увы, не в нашу пользу.

Во-вторых, его вела вера в то, что он обязательно получит поддержку своих единомышленников. Вроде мягкий и терпимый, Гамлет Исаев обладает известной твердостью характера, бойцовскими качествами - наверное, от деда Исахана. Он никогда не отступает, потому и в вопросе о создании университета, в котором предпочтение отдавалось бы научным исследованиям, и в том, что работать здесь должны лишь сильнейшие, ему удалось добиться солидарности коллег.



Наконец, третье и, по-моему, главное. Доктор физико-математических наук, ученый мирового признания Гамлет Исаев - пламенный патриот. Любовью к Родине, к своему народу, гордостью за нынешнее процветание Азербайджана во всех областях проникнуто все, что сделал и продолжает делать этот большой ученый во имя Отчизны…

Гамлет Исаев активно занимается исследованиями в области гуманитарных и социальных

наук. И здесь он, как и в поэтическом творчестве, о котором речь пойдет ниже, известен как Гамлет Исаханлы. В своих многочисленных статьях и книгах он подробно исследует историю литературы и культуры, историю науки и образования. исламскую цивилизацию, теорию и историю перевода. Он, как я узнала из уже упомянутой мною книги, - один из авторов учебного пособия «Азербайджанский язык для иностранцев» и один из редакторов Большого Хазаровского англо-азербайджанского словаря.

Не могу не сказать и о том, что этот завоевавший огромную популярность человек занимается также международной деятельностью. На заседаниях международных организаций, таких как UNESCO, НАТО и другие, не раз слушали его интересные выступления…

Обозревая пройденный нашим соотечественником путь, нельзя не порадоваться: ведь многое из задуманного им свершилось. Он с упоением занимается любимой наукой, плодотворно продолжает просветительскую деятельность, наконец, получило путевку в жизнь, несмотря на тернистый путь к нему, его детище Хазар - университет нового образца. Его осуществленная мечта!

Несмотря на огромную занятость, Гамлет Исаханлы, известный своими высокими человеческими качествами, с любовью к людям занимается благотворительностью: помогает детям, лишенным родителей, беженцам, бездомным. Это зов его души, его благородного сердца. И во всех этих делах рядом с ним всегда, кроме относящихся к нему с любовью и уважением коллег-единомышленников, - его замечательная семья: спутница жизни Наиля ханым и четыре теперь уже взрослые дочери, которых она ему подарила…

Однако есть у моего героя еще одна область жизни, вход в которую закрыт для всех. Это поэзия - «ковчег спасения» в бурном море окружающей человека материальной действительности. Так назвала мир поэзии Людмила Лаврова, автор предисловия к стихотворному сборнику Гамлета Исаханлы «Контрасты», изданному в Москве на русском языке в прекрасном переводе известной поэтессы Аллы Ахундовой.

Да, Гамлет Исаханлы пишет стихи. Стихи, которые, как сказал ученый-филолог из Ирана Юнус Вахдети, «идут от сердца, ласкают душу… они прекрасны, и красота их заключается в простоте…». А турецкий поэт и филолог Туран Метин, ознакомившись с поэтическим творчеством Исаханлы, заговорил даже о появлении в современной азербайджанской поэзии «новых процессов», о «художественном новаторстве формы». Что ж, возможно, это и служит всевозрастающему интересу к стихотворным произведениям Гамлета Исаханлы, многие из которых переведены на турецкий, русский, китайский, грузинский, английский, украинский, финнский и другие языки и изданы в виде поэтических сборников. А многие даже переложены на музыку. Помнится, на стихи этого автора сочинили когда-то чудесную музыку народные артисты Азербайджана незабвенные Васиф Адыгезалов и Рамиз Мустафаев, и исполняли их песни наши видные мастера музыкального искусства.

Отмечу и то, что поэт Исаханлы, романтик по складу души, с увлечением переводит на родной язык своих любимых поэтов-лириков - Тютчева и Фета, Ахматову и Есенина, а также Байрона, Блейка, Геррика и еще многих других.



Выдающиеся успехи Гамлета Исаева-Исаханлы, члена целого ряда известных международных организаций, как в области науки и образования, так и в поэтическом творчестве, конечно же, не проходили незамеченными: он удостоен самых-самых престижных наград…

В связи с предстоящим в начале марта днем рождения моего героя хочу поздравить его, пожелать здорового долголетия и такого же, как поныне, творческого горения! Уверена: так, Иншаллах, и будет!..

А завершить повествование хочу очень понравившимися мне стихами Аллы Ахундовой, адресованными Гамлету Исаханлы:

*В отличие от «важных лиц»*
*Вы - личность! Человек-планета!*
*Отец и четырех девиц,*
*И сына - университета.*
*Певец незримых нам частиц*
*Математических таблиц.*
*Творец в себе самом поэта*
*Вы - единица единиц,*
*Вы - Гамлет. Вы - принципиально - принц…*
*Но кто вы? Так и нет ответа*

**Эльмира Алиева**,
*заслуженный журналист Азербайджана*

http://kaspiy.az/news.php?id=55900
26.02.2017

# "SPAGETTİ KÖRPÜ" MÜSABİQƏSİNİN QALİBLƏRİ MÜKAFATLANDIRILDILAR

Fevralın 16-da Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Hassan Niknafs ənənəvi universitetlərarası "Spagetti körpü" müsabiqəsinin qalibi olmuş Xəzər Universitetinin "Koroğlu" komandasının üzvləri ilə görüşdü, onlara sertifikat və hədiyyə təqdim etdi.

Qeyd edək ki, yarışmada Rövşən Allahverdiyev, Murad Tapdıqlı, Sultan İsmayılov və Fadima Bayraqdarovadan ibarət "Koroğlu" komandasının hazırladığı spaghetti körpü qırılmamışdan öncə 48.66 kq ağırlığa tab gətirə bilmişdi. Körpünün öz agırlığı isə 0.894 kq idi.



# MEETING WITH "SPAGHETTI BRIDGE" COMPETITION WINNERS

On February 16, a meeting with the winners of the "Spaghetti Bridge" Competition for Fall Semester 2016 was held at Khazar University. The first-place winners of the competition, the members of Khazar University's "Koroglu" team, included Rovshan Allahverdiev, Murad Tapdigli, Sultan Ismayilov and Fadima Bayraqdarova. This team's spaghetti bridge was able to hold 48.66 kg of weight before breaking. The weight of the bridge was 0.894 kg.

In a brief ceremony, Dr. Hassan Niknafs, the Acting Dean of the Engineering College, met with the team members and congratulated them for their achievement in designing such a quality bridge for the competition

## SEMİNAR: "TƏCRÜBƏ PROQRAMLARININ KARYERA İRƏLİLƏYİŞİNDƏ FAYDASI"

Fevralın 24-də Xəzər Universitetində Karyera Mərkəzinin təşkil etdiyi "Təcrübə proqramlarının karyera irəliləyişində faydası" adlı seminar keçirildi.

Seminarda əsas məruzəçi kimi çıxış edən mütəxəssis Rəşad Bağırov 3-cü və 4-cü kurs tələbələrinə təcrübə proqramlarının axtarışı, vacibliyi və effektiv keçməsi yolları haqqında məlumat verdi.

## "BENEFITS OF INTERNSHIP PROGRAMS IN CAREER DEVELOPMENT" SEMINAR AT KHAZAR UNIVERSITY

Öz maraqlı görünüşünə görə hər zaman diqqət cəlb edən Piza qülləsi İtaliyanın ən məşhur simvollarından biri sayılır. 1360–cı ildə tikilən qüllə Piza şəhərinin zənglərdən ibarət olan qalasıdır və Santa Mariya Assunto kilsəsinin şəhər ansamblının əsasını təşkil edir. Qala görünüşünə görə "Yıxılan qüllə" adını qazanıb və bütün dünyada öz xarici görkəmi ilə fərqlənib. Çünki qüllənin xarici görünüşünə diqqət yetirdikdə onun maili olduğu görünür.

Qüllənin ən alçaq tərəfinin torpaqdan hündürlüyü 55,86 m-dir və ən yüksək tərəfi isə 56,7 m hesablanıb. Divarların eni 4,09 m, yuxarıya doğru istiqaməti isə 2,48 metr olduğu qeyd edilir. Şaquli vəziyyətindən 3,9 metr uzaq bilinir, 294 pilləsi var.

Piza qülləsinin tikintisi üç mərhələdən ibarət olub. 9 avqust 1173–cü ildən başlayaraq iki dəfə uzun aralarla təxminən 200 il davam edib və 1360–cı ildə başa çatdırılıb. Qüllə katolik kilsəsi olan Campo dei Miracolinin zəngləri kimi yaradılıb, amma memarı indiyə kimi məlum deyil. Əslində qüllə şaquli istiqamətdə layihələndirilib, lakin əyilmə tikinti prosesi gedərkən hiss edilməyə başlanılıb.

15 dekabr 2001–ci ildə qüllənin qapıları turistlər üçün açıq elan edilib. 1564–cü ildə Piza şəhərində anadan olan böyük alim Qalileyo Qaliley öz təcrübələrinin çox hissəsini məhz bu qüllədə aparıb. O, əlindəki müəyyən kütlələri Piza qülləsinin başından ataraq onların düşmə qabiliyyətlərini öyrənib və sürətin heç də çəkidən asılı olmadığını sübut edib.

30 dekabr 1986–cı ildə YUNESKO Ümummilli Abidələrin Mədəniyyət İrsi siyahısına salınıb. Tikili 8 mərtəbədən ibarətdir. Binanın bütün konstruksiyalarla birlikdə ümumi çəkisi 14700 tondur. Bura özünün silindr forması ilə bütün dünya ölkələrində tanınıb. Piza qülləsinin memarlığı italyan abidələri içərisində ilkin yer tutur.



Xəzər Universiteti Multimedia Mərkəzinin direktoru Natella Barkayanın rəhbərliyi ilə mərkəzin əməkdaşları üçün növbəti treninq İçərişəhərdə keçirildi. Fotoları təqdim edirik.

















# CƏLAL ALE-ƏHMƏD

(1923-1969)
*İran*

# Amerikalı ər

*(Hekayə)*

– Araq?.. Xeyr, minnətdaram, o mənlik deyil, yenə viski olsaydı, bəlkə... Heç olmasa, bir azca - qədəhin dibində... Sağ olun... Yox, su ilə aram yoxdur... Qazlı su, bəlkə... Heyif! O murdarın it xasiyyəti axırda mənə də keçdi! Kaş biləydiniz, o necə qazlı viski içirdi! Mən nə qədər ki atamın evindəydim, belə şeyləri dilimə də vurmazdım. Atam heç indi də bunları yaxın qoymur. Heç bir içkini! Yox, mömin və ya müqəddəs deyil, sadəcə, bizim ailədə bu cür içkilər əvvəldən adət olmayıb. Amma o murdarın mənə öyrətdiyi ilk şey qazlı viski düzəltməkdi.

İşdən qayıdan kimi, hələ əllərini yumamış qazlı viskisi dəhlizdə əlində hazır olmalı idi. Əgər mən onun həmin əllərlə nə işlər gördüyünü bilsəydim... O, evdə olmayanda arada onun viskisindən dadmaq həvəsinə düşürdüm. Əlbəttə, onda hələ qızım dünyaya gəlməmişdi. Təklikdən darıxırdım. Amma xoşum gəlmirdi. Boğazımı elə pis yandırırdı ki. Ona yoldaşlıq etməyimi çox istəsə də, alınmırdı. Amma hamilə qaldığımı biləndən sonra israrla mənə pivə içirdirdi ki, südünə xeyirdi... Viski isə qətiyyən! Axıra qədər də belə oldu. Amma onun peşəsindən xəbər tutan gün özümdən asılı olmadan viskini heç nəsiz başıma çəkdim. Sonra da birini özümə süzdüm, birini də onun "girl frendinə", yəni guya keçmiş nişanlısına. Axı həmin xəbəri o gəlib mənə demişdi. İkimiz oturub başladıq viski içərək dərdləşməyə. İndi ağlamayım, bəs nə vaxt ağlayım? Təsəvvür edin: adamın orta təhsili ola, özü də – gördüyünüz kimi – gözəl, atası hörmətli bir şəxs, yeyib-içməyi yerində, ingiliscəni öyrənə, hər halda, kişisinin əlinə baxıb hər dediyinə əməl etmək məcburiyyətində qalacaq qadın olmaya, amma axırda qabağına beləsi çıxa! Axı bu necə ola bilər?! Ölkədə bu qədər ali təhsilli gənc, bu qədər mühəndis, həkim və sairə var... Ancaq o başına kül olmuşlar axırda ya avropalı qız alırlar, ya da amerikalı. Gedib məhəllələrindəki püstəsatanın qızınamı, ya yol üstündəki supermarketin satıcısınamı, yaxud diş həkiminin yanında dişlərinə bircə dəfə pambıq qoymuş xidmətçiyəmi bənd olurlar. İndi sən gəl onların özlərini əzib-büzmələrinə, lovğa ədalarına tamaşa elə! Guya Süzan Heyvord, ya Şirli Makleyn, ya da, nə bilim, Elizabet Teylordur... Canım sizə desin, srağagün axşam onlardan birini gördüm. İki aydır bir iranlı oğlanla evlənib, on beş gündü İrana gəlib. Ərini teleqram vurub çağırıblar ki, bəs dur gəl, deputat seçilmisən. Məni ev yiyəsi çağırmışdı ki, xarici qonağı tək qalmasın. Yanında dilbilən biri olsun ki, ona dərdini desin. Düz bir həftə bundan qabaq. Sən onun Texas ləhcəsi ilə danışığını görəydin... Yox, gülməyin, zarafat eləmirəm. Danışanda ağzını elə geniş açırdı ki, gəl, görəsən! Dırnaqlarının kobudluğundan məlum olurdu ki, gündə bir yığın qab yuyurmuş. Amma bir eşidəydiniz, nə deyirdi: "Biz sizə mədəniyyət gətirmişik, qaz lampası ilə işləmək öyrətmişik, paltaryuyan maşın..." Bax, belə-belə sözlər danışırdı. Əllərindən görünürdü ki, özü Texasda paltarı teştdə yuyurmuş. Amma bizə belə ədalar göstərirdi. Bir inəkotaranın qızıymış da. Əlbəttə, sonradan torpaq sahəsindən neft

çıxan və Allaha bəndəlik eləməyən inəkotaranlardan yox, başqasının inəklərini otaranlardan birinin. Düzdür, mən onun özünə heç nə demədim. Amma məclisdə bir kişi vardı, həmin kişi öz bərbad ingiliscəsiylə ona çatdırmaq istədi ki, əgər mədəniyyət bu dediklərinizdirsə, onda yəqin həmin şirkət cənabınızı da paltaryuyan maşının dalınca bizə hədiyyə göndərib! Əlbəttə, həmin qadın onun dediklərini başa düşmədi. Dedim axı, kişinin ingiliscəsi bərbad idi. Axırda məcbur qalıb kişinin dediklərini mən tərcümə elədim ona. Amma o, həmin kişiyə cavab vermək əvəzinə, üzünü mənə tutub qırmızı-qırmızı dedi ki, yəqin, xasiyyətin pis olub, ya da pis yola düşmüsən, ərin səni ona görə boşayıb. Hə, o kişinin sözlərinin acısını azaltmaq, həm də qadını darıxmağa qoymamaq üçün ürəyimi ona açıb demişdim ki, mən də Amerikada olmuşam, ərim amerikalıydı, amma sonradan boşanıb geri dönmüşəm. Ona ərimin nə iş gördüyünü, boşanmağımıza onun peşəsinin səbəb olduğunu deyəndə də, bilirsiniz, necə reaksiya verdi? Qayıdasan ki: "Burda eyiblik nə var?! Ümumiyyətlə, heç bir iş eyib sayıla bilməz. Yəqin, ailəsi səni başından edib ki, mirasa şərik çıxmayasan, ya da pis yola düşmüsən..." Bax, belə-belə sözlər! Elə danışırdı ki, heç təzə gəlmiş adama oxşamırdı. Hələ bizi borclu da çıxarırdı. Elə olmalı idi də. Axı əri deputat idi. O külbaşlar gedib bu gəzəyənləri almasalar, mənim kimi qızlar da özlərini dağa-daşa vurmazlar... Yox, yox, zəhmət çəkməyin, mənə çox süzməyin, çox içəndə halım pisləşir. Viski, özü də acqarına?! Eləcə dibində bir dəfə də süzün, bəs edər. Bircə qıça pendir də olsa, pis olmaz... Təşəkkür...

Bu pendirdi?! Bəs niyə belə ağdır? Nə duzludur! Haranındır? Liqvan? Ora haradır?... Heç tanımıram. Holland, Danimarka pendirlərini tanıyıram, amma beləsini yox, xoşlamıram da. Bu, püstə ilə yaxşı gedir. Minnətdaram. Nədən danışırdım? Hə, yadıma düşdü. Onunla amerikalıların dərnəyində tanış olmuşdum. Bir il idi dil kursuna gedirdim. Yəqin ki, orda necə tünlük olduğundan xəbəriniz var. Attestat alandan sonra universitetə qəbul olunmaq üçün sənəd vermişdim. Amma, bilirsiniz də, 20-30 min adamın içindən universitetə daxil olmaq çətindi. Buna görə də atam dedi ki, dil kursuna get, həm başın qarışsın, həm də bir xarici dil öyrən. O murdar da həmin kursda müəllim işləyirdi. Boylu-buxunlu, şüvərək, sarışın saçlı, tipik amerikan idi. Əlləri elə böyük idi ki, tapşırıqları yoxlayanda bütün dəftəri tuturdu. Bax belə! İlk vaxtdan bir-birimizdən xoşumuz gəldi. Dedikcə ədəbli idi. Əvvəl məni dərnəyin Abbasabaddakı yeni binasında açılmış rəsm sərgisinə dəvət etdi. Bu, o başsız adamlar cızan, lopa-lopa rəngləri bir-birinin yanına düzən, ya da adam adı ilə mütəkkə çəkib baş yerində də bir qədəh çəkən, nə bilim, iki metrlik parçanın ortasına iki qəhvəyi nöqtə qoyan rəssamların sərgilərindən idi. Sərgiyə atamla anamı da dəvət etmişdi. Bu dəvət onlara çox xoş gəldi. Sonra da bizi öz maşını ilə qaytardı evimizə. Özü də çox ədəb-ərkanla: maşının qapısını özü açır, hər cür nəzakət göstərirdi... Təbii ki, bütün bunlar özlərinin hələ də avtomobili olmayan valideynlərimə xoş təsir bağışlamışdı. Elə həmin gecədən işin rəngi dəyişdi. Sonra o, özlərinin milli bayramlarının birində məni rəqs məclisinə dəvət etdi. Deyəsən, "Sanksqivinq" mərasimi idi. E, necə, bilmirsiniz? "Sanksqivinq", yəni şükran günü, amerikanların qırmızıdərililərin axırına çıxdıqları gün! Atam həmin məclisə getməyə icazə verdi. Axı niyə də verməsin! Mənim dil kursundan sonra danışmağa bir adamım yox idi. Dili də ki, təcrübədə tətbiq eləmədinsə, kursa getməyin faydası yoxdur. Üstəlik, belə qərara gəlmişdik ki, mən də ona fars dili öyrədim. Əlbəttə, bu, ingilis dili dərslərindən kənarda, asudə vaxtda olurdu. O, fars dili öyrənmək üçün həftədə bir dəfə bizə gəlirdi. Belə qərarlaşdırmışdıq. Kaş biləydiniz həmin bayram necə gözəl keçdi! Boranını deşib, üstündə göz, burun, dodaq yeri açmış, içindəsə lampa yandırmışdılar. Çox gözəl rəqs edirdilər! Mən artıq yavaş-yavaş ingiliscəyə alışırdım. Buna görə də daha özümü məclisdə qərib hiss eləmirdim. Əlbəttə, həmin məclisdə iranlı da çox idi. O, həmin gecə də pivə içməyim üçün israr etdi, amma mən içmədim. Deyəsən, onun bundan da xoşu gəlmişdi. Çünki məni qaytarıb evə gətirəndə anama dedi ki, belə bir qızınız olduğu üçün sizi təbrik edirəm. Onun bu sözlərini də mən özüm tərcümə etdim. Axı mən indi bunu bacarırdım. Beləcə, səkkiz ay bir yerdə olduq. Birlikdə qayıq sürmək üçün Kərəc bəndinə, kinoya, muzeyə, bazara, Şemirana, "Şah Əbdüləzim"ə və bir çox başqa yerlərə getdik. Əgər o olmasaydı, mən həmin yerləri ömür boyu görməyəcəkdim. Nəhayət, Milad bayramında bizi evinə dəvət etdi. Milad bayramının nə olduğunu, hər halda, bilirsiniz. Atamla anam da gəlmişdi. Firfir də orda idi. Tanımırsınız? Qardaşımdı da – Firidun. Los-Ancelesdən iki dənə hazır hinduşqa göndərmişdilər.... Paho, bunu da bilmirsiniz? Los-Anceles də – Hollivud olan yer. Əlbəttə, təkcə ona göndər-

məmişdilər, qürbətdəki amerikalıların hamısına hinduşqa göndərirlər ki, bayram axşamı qəriblik hiss etməsinlər. Əlbəttə, indi elə bir murdar adamı xüsusi tapşırıqla Tehrana göndərirlərsə, hinduşqa, siqaret, viski və şokoladla da təmin etməlidirlər də! İnanın, qatil, oğru, cinayətkar, qanqster olmasına razı idim, təki o işlə məşğul olmayaydı... Zəhmət olmasa, o viskidən bir azca da süzün. Deyəsən, Amerika malı deyil. Onlar "Burbon" içirlər, torpaq tamı verir. Bəli, bu, şotland viskisidir. Lap britaniyalıların özləri kimidir. Nə deyirdim? Hə, həmin axşam şam süfrəsi arxasında rəsmi şəkildə məni atamgildən istədi. Tərcüməçiliyi də özüm edirdim. Maraqlıdır, hə? İndiyə kimi belə ərə gedən olmayıb. Əvvəl hinduşqanı doğrayıb boşqablarımıza qoydu. Şampan şərabını açıb əvvəl atamla anama, sonra da hamıya süzdü. Anam yox, ancaq atam içdi. Mən özüm də dodağımı toxundurdum. Əvvəl tünd və ağızbüzücü bir tam hiss elədim, amma tündlüyü gedəndən sonra ağzımda şirinliyi qaldı. Sonra dedi ki, atana səni istədiyimi de. İsrar edirdi ki, onun dediklərini yavaş-yavaş, cümlə-cümlə çatdırım, sözlərinin hamısını çevirim. Dedi ki, hərbi xidmətini başa vurub, vergidən azaddır, qan qrupu "B" dir, xəstə deyil, ayda 1500 dollar maaş alır, qayıdandan sonra isə maaşı 800 dollar olacaq. Amma Vaşinqtonda öz evi var, kirayə pulu verməyəcək, heç bir kredit borcu yoxdur, ata-anası Los-Ancelesdə yaşayır və onun işinə qarışmırlar...

Atam elə birinci gecədən razı idi. Mənə demişdi ki: "Bax, qızım, diqqətli ol, min qızdan birinə də amerikalıya ərə getmək qismət olmur. Zarafat iş deyil!" Onun bu sözləri indi də qulağımdadı: "Amma, özün də bilirsən, onunla sən yaşayacaqsan. Yaxşı fikirləşib götür-qoy etmək üçün ondan bir həftə möhlət istə..." Elə o cür də etdik. Əlbəttə, əslində iş elə əvvəldən həll olunmuşdu. Məsələdən bütün qohumlar xəbərdar idi. Onu iki-üç dəfə evimizə dəvət etmişdik, qonaqlıq-filan... Paxıllıq edən kim, qızını onun gözünə soxan kim, gəl görəsən! Bu işə görə xalaqızılarım, əmiqızılarım məndən küsdülər. Atam haqlıydı: zarafat iş deyildi bu! Ətrafımızdakı hər bir qız onunla evlənməyə hazır idi. Amma o, məni istəyirdi. Axı necə ola bilərdi ki, mən hədsiz fədakarlıq göstərim, ona öz əvəzimə bir başqa qız təklif edim?! Bircə nənəm gileylənirdi. Deyirdi ki, qohumlarımız arasında kaşanlı var, isfahanlı var, hətta buşehrli var, hamısını da tanıyırıq... Amma bu, amerikalıdır... Axı biz hardan bilək ki, o kimdir? Adam da evini-ailəsini tanımadığı, gedib bir-iki qonşusundan soruşub, haqqında nəsə öyrənə bilmədiyi kürəkənlə qohum olar?! O, əksər qocalara xas olan bu cür fikirlər deyirdi. Heç nişanımıza da gəlmədi, o ərəfədə çıxıb getdi Məşhədə. Amma mənim sevincdən uçmağa qanadım yox idi!

Kəbin kəsdirmək üçün nikah idarəsindən tanış məmur çağırmışdıq. Mərasimdə bütün qohumlarımız iştirak edirdilər, bir neçə nəfər də amerikalı var idi. Nişan süfrəsindən bir şəkillər çəkirdilər ki! Nişanlımın dostlarından biri mərasimi videokamera ilə də çəkirdi. Aman, aman bu amerikalıların əlindən! Burunlarını hər yerə soxurdular. Hey gəlib məni sorğu-suala tuturdular. İndi guya mən gəlin idim də... Amma heç onlar bunu fikirləşirdilərmi?! "Bunun adı nədir? Qəndi niyə belə bir-birinə sürtürlər? Çörəyin üstünə nə yazılıb? Üzərliyi hardan gətirirlər?..." Nə isə, axır ki, məsələ bitdi.

Elə həmin məclisdə qohumlarımızdan onlara canfəşanlıqla qulluq edənlərdən iki nəfəri də sürücü kimi idarələrinə işə götürdülər. O, mənim üçün yüz min tümən də mehriyyə təyin etdi. "La ilahə illəllah" cümləsini də elə kəbin kəsiləndə dilinə gətirdi, amma necə çətinliklə! Onun "la ilahə ..." deməsinə o qədər güldük ki!... Bunu bizim kəbinimizin şəriət baxımından yerində olması üçün deməli idi. Peşəsi? Məlum idi də - ingilis dili müəllimi! Amma kəbin kağızında hüquqşünas yazılmışdı. Səfirlik işçilərindən iki nəfər də kəbinə şahidlik etdi. Mən onu bu yalanına görə həbsxanaya atdıra və kompensasiya tələb edə bilərdim. Heç olmasa, məcbur edə bilərdim ki, indi qızıma aliment kimi verdiyi dörd yüz dollardan əlavə, altı yüz dollar da versin. Amma... Daha onu görmək belə, istəmirdim. Heç bircə saat da birgə yaşaya bilməzdim. Elə o da buna görə sonda uşağı mənə verməyə razı oldu. Yoxsa ki, öz qanunlarına görə, uşağı özündə saxlaya bilərdi. Əlbəttə, mən də mehriyyəmi ona qaytardım. Mürdəşir əlinə düşsün o da, onun pulu da! Siz o pulun hardan, nədən çıxdığını bilsəydiniz... Məgər o pulla boyunbağı alıb boyundan asmaq olar?! Yaxud ət, düyü alıb yemək olar?! Bu sözləri o gün həmin qadın da deyirdi: köhnə "girl frend"i, yəni qız dostu, nə bilim, nişanlısı... Mən onu birinci və sonuncu dəfə görürdüm. Təyyarə ilə Los-Ancelesdən birbaşa Vaşinqtona gəlmişdi. Hava limanından da bir maşını kirayə götürüb birbaşa gəlmişdi qapımıza.

Vaşinqtonda olduğum iki il ərzində onun qohumlarından heç kəsi görməmişdim. Deyirdi ki, yol

uzaqdı, hamının başı öz işinə qarışıb və sairə. Mənə də belə rahat idi, başımın üstündə kimsə ağalıq eləmirdi. Arada qohumları ilə məktublaşırdım. Onlara qızımın şəklini də göndərmişdim. Cavabında uşağa doğum hədiyyəsi göndərmişdilər. Qızımın bir yaşı olanda da şəklini göndərdik, amma daha onlardan xəbər çıxmadı...

Nəhayət, həmin qadın gəldi. Salam verib, mədəni şəkildə özünü təqdim elədi. Sonra da "Tək darıxmırsan? Bəh-bəh, nə gözəl qızdı bu!.." tipli sözlər... Paltaryuyan maşının bir yeri xarab olmuşdu, onu düzəldirdim. O da heç çəkinib-eləmədən gəlib mənə kömək elədi. Birlikdə paltaryuyanı düzəltdik, paltarları atdım maşının içinə. Sonra keçib oturmuşduq ki, onun dərdi açıldı. Dedi ki, biz nişanlı olanda onu Koreyaya müharibəyə apardılar. Müharibə qurtarandan sonra o daha Los-Ancelesə qayıtmadı. Qalıb Vaşinqtonda işləyirdi. Allah bilir, bunlar Koreyada camaatın cavan balasının başına nə oyun açıblar ki, qayıdandan sonra da bu işi görməyə razılıq veriblər. Mən onun nə işlə məşğul olduğunu soruşanda qadının gözləri kəlləsinə çıxdı ki, mən hələ ərimin nə işdə çalışdığını bilmirəmmi?! "İşləyib pul qazanmaq, əlbəttə ki, ayıb deyil. Amma bütün qohumları ondan həmin işinə görə uzaqlaşıblar. Onları nə qədər dilə tutubsa da, faydası olmayıb..." Mən ürəyimi yedim ki, olmaya, ərim cəllad işləyir... Ya bəlkə "qaz kamerası", yaxud "elektrik stulu" işlədəndir... Amma onun belə bir işdə... Qadın onun işinin adını çəkəndə dünya başıma daraldı, o isə durub mətbəxə keçdi, viski şüşəsini gətirib bir stəkan mənə süzdü, birini də özünə. Beləcə, dərdləşməyə başladıq... Hə, bu o qadının əlindən çıxan üçüncü nişanlısı imiş. Onlardan biri Koreya müharibəsində ölüb, biri Vyetnamda, bu da belə... Qadın deyirdi ki: "Heç bilinmir də, görəsən, nə üçün həmin müharibədən sağ qayıdanlar ya belə qeyri-adi işlərə girişirlər, ya da dəli, oğru, qatil olurlar..." Axı mən niyə bu vaxta kimi ərimin nə işlə məşğul olduğunu öyrənməmişdim?! Axı mən nökərin, ya hansısa yoldan ötənin qızı deyildim, yetimxanadan çıxmamışdım... Mən orta məktəb oxumuşdum, ata-ana tərbiyəsi görmüşdüm, gözəl idim, nə cür imkanlarım vardı...

Hə, zəhmət olmasa, birini də süzsəniz, pis olmaz. Sizin qonaqlarınız da gəlmədilər. Boğazım yaman quruyur... İşin bir pis cəhəti də bu idi ki, o qadın ürəyimə yaman yatmışdı, çox səliqə-sahmanlıydı. Danışırdı ki, yeddi ildir, Los-Ancelesdə ya ər tapmaq üçün çalışır, ya da kino ulduzu olmağa... Sonra durub paltarları sərdik, qızımı arabası ilə birlikdə qoyduq avtomobilin arxa oturacağına, getdik ərimin iş yerinə. Axı mən hələ də inana bilmirdim ki... Öz gözlərimlə görməliydim, çünki eşitdiklərim heç inandırıcı gəlmirdi. Əvvəl onun işlədiyi idarəyə getdik. Salam-əleykdən sonra "Sizə nə qulluq edə bilərik? Hansı ağaclar, hansı otlar və çiçəklər, necə bir mənzərə?.." kimi söhbətlər başlandı... Əgər orada nə iş görüldüyünü bilməsəydin, deyərdin ki, bəs, bunlar bal ayı keçirmək üçün ev tikirlər. "Hər şey proqramlaşdırılıb. Ölçülər, borular, hər iki tərəfdəki tutacaqlar, üzərinə qoyulacaq gül dəstəsi, taxtasının hansı materialdan olması, üzərinə hansı parçadan çəkilməsi, mərasimin təşrifat hissəsi... Adamı aparan araba necə olsun? Neçə at qoşulsun? Əgər ürəyiniz istəsə, avtomobillə də apara bilərik, bu həm də bir az ucuz başa gəlir. Avtomobil hansı sistemli olsun? Neçə müşayiətçi istərdiniz? Onların hərəsinin öz haqqı var, ona uyğun davranırlar. Onların hansı özünü sizin hansı qohumunuzun yerində hiss etməlidir? Necə geyinsinlər? Hansı kilsədə olsun?.." Dediklərimi təsəvvür edə bilirsiniz? İdarələrində addımbaşı reklam lövhələri, kibrit və salfetka qoymuşdular. Şəkillər, belə-belə yazılar: "Məxmər içində əbədi yuxu.. Filan bağ – behiştin bir guşəsi..." İşçilər başımıza fırlanırdılar: "Bir nəfərlik istəyirsiniz, ya ailəvi? Neçə nəfərsiniz? Əgər ailəvi götürsəniz, sizin üçün də sərfəlidir, əlli faiz ucuz olacaq, üstəlik, kreditlə də mümkündür..."

Az qala ürəyim partlayırdı. Ərimin belə bir işlə məşğul olduğuna heç cür inana bilmirdim. Axı o, mənə demişdi ki, hüquqşünasam: "loyə!" – eynən belə dediyi yadımdadır.

Nəhayət, özümüzü təqdim etdik və ərimin iş yerinin ünvanını aldıq. Amma bunu elə etdik ki, şübhələnməsinlər. "Bu xanım ərimin bacısıdır, Los-Ancelesdən gəlib, günortadan sonra da qayıtmalıdır. Ərimlə vacib işi var, mən də onun bu gün iş yerlərindən hansında olduğunu bilmirdim...." Ordan çıxıb onun iş yerinə getdik. Mən onu şümşad ağaclarının arxasından görməyincə, deyilənlərə inanmadım... Qollarını çırmalamışdı, əynində də iş paltarı. Çəmənliyi ölçür, ölçdüyü yerin dörd küncünə işarə qoyur, sonra elektron cihazı işə salıb həmin yeri dövrələmə deşir, ardından başqa yerə keçirdi. İki zənci gəlib həmin çəməni qəlib şəklində çıxarıb yük maşınına qoyur, daha sonra ərim qayıdıb yenidən həmin yeri deşir-

di. Zəncilər bir də həmin yerin torpağını çıxarır, başqa maşına yükləyirdilər. Ərim beləcə gah yuxarı gedir, gah aşağı qayıdırdı. Sonra da o iki zəncinin biri... Amma onların hər üçünün paltarı eyni idi. O qədər diqqətlə işləyirdilər ki, həmin torpağın bir zərrəsi belə itkiyə getmirdi, onun ətrafa, çəmənliyə səpələnməsinə əsla imkan vermirdilər. Biz yarım saat maşında oturub yol kənarındakı şümşadların arxasından ona tamaşa etdik və zar-zar ağladıq. Torpaq, ya çayır daşıyan yük maşınları yanımızdan ötüb keçirdi. Bir başqa yük maşınları da təzə tabutlar gətirir və onları çəmənliyin üstünə düzüb qəbirlərin tam hazır olmasını gözləyirdilər.

O günlər Vyetnamdan dəstə-dəstə əsgər meyitləri gətirilirdi, gündə iki yüz dənə, üç yüz dənə. Buna görə də ərimgilin başı bərk qarışıq idi. Onlardan başqa 10-12 dəstə də qəbir qazıb hazırlayırdı. Hər dəstə parkın bir tərəfində işləyirdi. Əcəb park idi, adı da Arlinqton. Eşitmiş olarsan. Amerikanın iki məşhur yeri var: bir paytaxtı, bir də həmin Arlinqton. Bütün dünyada məşhurdur. Ümumiyyətlə, Amerika bir tərəfdir, Arlinqton bir tərəfə. Bunları həmin vaxt mənə o qadın dedi. Ora istiqlal döyüşləri zamanından məşhurlaşıb. Kennedinin də qəbri ordadır. Camaat ora tamaşa etməyə gedir. Orda fəxri qarovul dəstəsi də dayanır. Qarovul dəstələrinin bir-birini əvəz etməsinin özünəməxsus təşrifat qaydaları var. Park başdan-başa çəmənlik, kiçik təpəciklərdir. Çəmənliklərin ətrafına ağaclar əkilib, hər məzarın baş tərəfinə ağ daşdan nişanə qoyulub. Daşın üstünə məzardakının adı, vəzifəsi qeyd edilib. Polkovniklər bir tərəfdə, mayorlar başqa tərəfdə, sıravilər tamam ayrı tərəfdə. Qadın deyirdi ki, bax, hərbi rütbəyə görə fərqləndirməyə burda da riayət edilib! Deyirdi ki, biz amerikalıların bütün cəhdlərinin son ucu bu Arlinqtonda bitir... Ürəyi doluymuş! Yeddi il gözləmişdi, üç nişanlısı əldən çıxmışdı... O, mənə həm iki nişanlısının, həm Kennedinin qəbrini göstərdi, həm də fəxri qarovulun dayandığı yeri. Sonra geri döndük. Mənim dayanıb oraya tamaşa etməyə əsla hövsələm yox idi.

Günorta yeməyini restoranda yedik. Ordan getdik kinoya, amma qızım o qədər zırıldadı ki, heç bilmədim, filmdə nədən bəhs olunur. Günortadan sonra – saat dörddə məni evə gətirib qoydu, özü isə çıxıb getdi. O, xüsusi endirimlə ikitərəfli bilet almışdı və həmin gün qayıtmaq məcburiyyətində idi. Bilirsiniz, gedəndə mənə nə dedi? "Müharibələrdə onların başı o dünyaya elə qarışıb ki, bizim dünyanı yaddan çıxarıblar..." Ərim axşamçağı evə gələndə mən ona söhbəti açdım. Qadın gedəndən sonra çox fikirləşmişdim, iranlı dost-tanışlarıma zəng vurub məsləhətləşmişdim... Əvvəlcə onun məni israrla Misgərabada aparması yadıma düşdü. Bu, toyumuzdan qabaq olmuşdu. Ora elə getdik ki, guya Gülüstan muzeyinə gedirdik. Onda mən heç Misgərabadın nə olduğunu, harda yerləşdiyini bilmirdim. Bayaq da dedim, əgər o olmasaydı, mən Tehranın çox yerlərini tanımayacaqdım. Əslinə qalsa, onda da tanımırdım. İdarələrinin sürücüsü tanıyırdı oraları. Mən də guya tərcüməçi kimi gedirdim. Elə hey meyiti kəfənləmək, dəfn etmək barədə suallar verirdi. Mən bu barədə elə bir şey bilmirdim. Sürücümüzsə, erməni olduğu üçün bizim müsəlman adət-ənənələrindən xəbərsiz idi. Adaxlım gedib Misgərabadın qapıçılarından birini çağırdı. Həmin qapıçı izah edirdi, mən də ingiliscəyə çevirirdim. O zaman belə suallar verməklə nə məqsəd güddüyünü başa düşmürdüm. Amma yadımdadır, nənəm deyinmək üçün elə bu məsələni əlində bəhanə etmişdi və onun bu əməlinin nə məna daşıdığını soruşurdu: "Axmaq adam, namaz qılmaya-qılmaya, durub gəlib camaatın qızına elçiliyə, sonra da durub qızı Misgərabada aparır!.."

Yadıma gəlir, həmin gün onun yanında bir başqa amerikalı da var idi. Mən qapıçının sözlərini onlara tərcümə edəndə o biri qayıdıb ərimə dedi: "Görürsən, onlara hətta tabut da lazım olmur. Bir parça ağ üçün xeyli sərmayə yatırmağa dəyərmi!.." Mən o amerikalını tanıyırdım. Proqramlaşdırma Təşkilatının məsləhətçisi idi. Deyəsən, öz aralarında belə qərara gəldilər ki, bu məsələni Təşkilatla da müzakirə etsinlər. Sən bir mən axmağa bax ki, həmin vaxt onların bu sözlərinin başına ip salmadım. Yadımdadır, onlar bizdə ölünün tabuta qoyulmadığını bilən gün mənə dedi ki, amma biz meyiti bəy, yaxud gəlin kimi bəzəyib tabuta uzadırıq; əgər qocadırlarsa, ovurdlarına pambıq qoyuruq, saçlarını bururuq, bunlar isə xeyli pul deməkdir. Mən həmin gün şam yeməyində bunları nənəmə danışmışdım, arvad təəccüb içində deyinməyə başlamışdı. Sonra da, dediyim kimi, bizim nişanımız günü çıxıb getmişdi Məşhədə. Amma gör heç mən nəsə anlamışdımmı?! Axı, özünüz deyin, məgər yaraşıqlı, pullu və hörmətli bir amerikalıya ürcah olan iyirmi yaşlı qız bütün bunlardan necə şübhələnə bilərdi?! Axı onun Misgərabada niyə getdiyi mə-

nim nəyimə lazım idi? Nənəm kimi o cür yerlər, elə məsələlər barədə fikirləşib şübhələnməyimə hələ çox vardı. Vaşinqtonda olanda ərim günortalar evə gələndə bəzən deyinirdi ki, zəncilər işimizi əlimizdən alırlar... Yadımdadır, bir dəfə soruşdum ki, məgər zəncilərin hakim işləmək hüququ var?! Axı mən onu "loyə", yəni hakim, hüquqşünas, ədliyyəçi bilirdim...

Nə isə, o axşam ərim qapıdan girən kimi viskisini tutuzdurdum əlinə, birini də özüm üçün süzdüm, onunla üz-üzə oturub məsələni açdım. Mən artıq hər şeyi götür-qoy etmiş, bəs deyincə məsləhətləşmişdim. İranlı dostlarımdan biri telefonda mənə demişdi: "Aydındır, onların hamısı bu yolun adamıdır. Onlar bütün bəşəriyyətin gorqazanıdırlar!" Mən də qayıtdım ki: "Sən də şüarçılıq etməyə vaxt tapdın?!" Bilirdim ki, amerikalılardan yanıqlıdır. Onun pasportunu ləğv etmişdilər: nə geri qayıda, nə də orda qala bilirdi. O da indi əlacsızlıqdan Misir vətəndaşlığına keçirdi. Daha ona deyə bilmədim ki, əgər elədirlərsə, bəs niyə ilişib qalmısan Amerikada? Bir nəfər də vardı, çox qəşəng oğlan idi, vaxtilə ona ərə getməyi elə arzulamışdım ki... Bircə bilsəniz, o oğlan mənə nə dedi: "Əşşi, sən də! Məncə, Amerikadakı gözəl həyat səni havalandırıb, indi toxluqdan belə eləyirsən!" Eynən belə dedi. Bilirsiniz, onun özü nə işlə məşğul idi? Heç nə! İki amerikalı qadın saxlayırdı onu. Yox, sərxoş deyiləm, böhtan da demirəm. Həmin qadınların biri müəllimə idi, o biri də stüardessa. Hərəsinin bir evi vardı. Həmin oğlan həftənin üç gününü birinin evində olurdu, dörd gününü də o birinin. Xan kefində yaşayırdı. Nə oxuyurdu, nə işləyib pul qazanırdı, nə də kimsə ona kənardan pul göndərirdi. Amma lap körfəz şeyxləri kimi dövran sürürdü. İranlıları, israrla, qaldığı evlərə aparır, utanıb-qızarmadan yaşayışını onların gözünə soxurdu. Bəli, belələrinin üzündən mən – iyirmi üç yaşlı gənc qadın – qızımın əlindən tutub geri dönmək məcburiyyətində qalmışdım. Amma yenə sağ olsun. Çünki onunla danışıb qurtarandan sonra telefon yenidən zəng çaldı. Dəstəyi götürdüm, gördüm bir başqa iranlı gəncdir. Özünü təqdim elədi, dedi ki, bəs mən bayaq danışdığınız oğlanın dostuyam, hüquq fakültəsində oxuyuram, bildiyimə görə, probleminiz var, nə kömək edə bilərəm sizə? Ondan xahiş elədim, evimizə gəldi. Yarım saat oturub məsələnin bütün cəhətlərini məsləhətləşdik və son qərara gəldik. Buna görə də xatircəm idim, ərim gələndə nə deyəcəyimi bilirdim. Saat 10-a kimi oturub viski içə-içə ərimə başa saldım ki, mən artıq Amerikada qalan deyiləm. İsrarla onun işindən nə cür xəbər tutduğumu soruşsa da, heç nə demədim. Elə bilirdi ki, ya ata-anası, ya da bacısı, qardaşı xəbər verib. Mən də elə "yox, yox" deyib durmuşdum. Çox təkid elədi ki, həmin gecə gəzməyə çıxaq, kinoya, ya da kluba gedək, bu məsələyə bir də sabah qayıdaq. Amma mən razı olmadım. Ona son sözümü deyib qızımın otağına getdim, qapını arxadan bağladım, uzanıb div yuxusuna getdim. Sözün düzü, yaman sərxoş olmuşdum, eynən indiki kimi. Səhərisi gün yollandım məhkəməyə. Hakim çox baməzə adam idi, mənə dedi ki, bu da belə bir peşədir də, heç buna görə boşanarlarmı!? Onda hakimlə aramda belə bir dialoq oldu:

– Cənab hakim, əgər sizin qızınız olsaydı, onu belə bir adama ərə getməsinə razılıq verərdiniz?

– Təəssüf ki, mənim qızım yoxdur.

– Gəlininiz necə, var?

– Bəli, var.

– Əgər sabah gəlininiz gəlib desə ki, ərim əvvəl müəllim idi, amma indi başqa şey çıxıb, ya da, ümumiyyətlə, yalan danışıb, onda necə?

Bu məqamda ərim müdaxilə edib sözümü kəsdi. Yəqin, yalançılığının üstünün açılmasını istəmirdi. Və beləcə, boşanmağa razılıq verdi. Qızımın aliment kağızını imzaladı, qayıtmaq xərcini də elə oradaca ondan aldım. Bax, belə. Amerikalı ər macəram bu cür tamamlandı... Zəhmət olmasa, o viskidən bir az da... Sizin bu qonaqlarınız niyə gəlib çıxmadılar, görəsən?.. Amma... Ey dili qafil!.. Deyirəm, bəlkə, həmin qadın – onun "girl frend"i – bu yolla mənim torbamı tikirmiş, hə?..

*Tərcümə etdi:*
**Ağabala Mehdiyev**




# TOKYO DISNEYSEA

## ANNUAL VISITORS: 14,084,000

DisneySea, the companion park to Tokyo Disneyland overlooking Tokyo Bay, took inspiration from aquatic myths, legends and the lore of the sea. Divided into seven "ports of call," the park emphasizes water attractions with Venetian gondolas, a Mermaid Lagoon, a journey to 20,000 Leagues Under the Sea and an Aquatopia with quirky boats in a sea of rocks, whirlpools and water spouts. But it's not all fountains and bubbles—the park also has scary rides like the Tower of Terror, Journey to the Center of the Earth, and Indiana Jones Adventure: Temple of the Crystal Skull.



## PARIS

# NOTRE DAME CATHEDRAL



A masterpiece of Gothic architecture—all soaring buttresses, crouching gargoyles, and magnificent rose windows—Notre Dame has survived attacks of Huguenots, sansculottes, occupying armies, and questionable renovations since its completion in 1345. In spite of its often violent past, visitors flock to the cathedral for the hushed peace and reflection it provides, even in the midst of Paris.

**ANNUAL VISITORS: 14,000,000**





# SAN DIEGO

## BALBOA PARK

ANNUAL VISITORS: 12,000,000 TO 14,000,000

Balboa Park's 1,200 acres form a mini-city with 15 accredited museums, 19 gardens, nine performing arts groups, a miniature railroad, a golf course, tennis courts, lawn bowling, a gymnasium, a historic carousel, and a Super Sonic Samba School. Not to mention the world-famous San Diego Zoo, with three crowd-pleasing giant pandas. Balboa Park also features the Spreckels Organ, whose 4,518 pipes range from the size of a pencil to 32 feet tall.



# ITALY

## VATICAN CITY

## ST. PETER'S BASILICA

ANNUAL VISITORS: 11,000,000

One of the holiest Catholic sites, St. Peter's teems with ornate gold, marble columns, paintings of angels, iconic statues, and works created by a who's who of Renaissance artists, including Raphael, Brunelleschi, Bernini, and Michelangelo, who sculpted the marble Pietà and designed the massive dome. For a nominal fee, you can climb 320 steps to the top and soak up the most famous panorama of Rome.




# BRAZİLİYA

# RİO-DE-JANEYRO

## PORTUQALİYA KRAL KİTABXANASI

Kitabxananın əsası 1837-ci ildə Braziliyanın paytaxtı Rio-de Janeyroda 43 nəfər Portuqaliya mühaciri tərəfindən Portuqaliya mədəniyyətini təbliğ etmək məqsədilə qoyulmuşdur. Hazırkı binasının tikintisinə 1880-ci ildə başlanılmış, 1887-ci ildə başa çatmışdır. Memarı portuqaliyalı Rafael da Silva-i-Kaştrudur.

Binanın təməlinə ilk daşı 1880-ci il iyunun 10-da Braziliya imperatoru II Pedru qoymuş, açılışını isə 1887-ci il sentyabrın 10-da qızı İzabella etmişdir.

Portuqaliya Kral Kitabxanası 1900-cü ildən kütləvi kitabxana kimi fəaliyyət göstərir.

Göstərdiyi yüksək xidmətə görə dəfələrlə orden və digər mükafatlarla təltif edilmişdir. 2014-cü ildə "Time" jurnalı tərəfindən gözəlliyinə görə dünyanın dördüncü kitabxanası adlandırılmışdır.








## XƏZƏR UNIVERSITETI 2017-2018-CI TƏDRİS İLİ ÜÇÜN BEYNƏLXALQ TƏLƏBƏ QƏBULU ELAN EDIR

Xəzər Universiteti 2017-2018-ci tədris ili üçün beynəlxalq tələbələr qəbulunun başlanmasını və Beynəlxalq Təqaüd Proqramını elan edir. Tədris proqramları dörd (4) fakültədə bakalavriat, magistratura və doktorantura səviyyələrində təklif olunur. Təqaüd proqramı dünyanın bütün ölkələrindən olan tələbələr üçün açıqdır və hər ölkəyə tam təhsil haqqını ödəyən iki təqaüd imkanı ayırır.

Son müraciət tarixi: 15 aprel 2017-ci il, saat 17:00 (5:00 PM) (Bakı vaxtı ilə).

Müraciət etmək üçün:

http://www.khazar.org/az/menus/496/how_to_apply_sup_style_color_red_new_sup_.

## KHAZAR UNIVERSITY OPENS ADMISSION FOR INTERNATIONAL STUDENTS (2017-2018 ACADEMIC YEAR)

Khazar University announces the opening of admission and the International Scholarship Program for international students. Study programs are offered in four schools of the university at both undergraduate (bachelor) and graduate (master and PhD) levels. The scholarship program targets nationals of all countries around the world and offers two merit-based full-tuition fee covered scholarships for each country.

Deadline: April 15, 2017 at 17:00 (5:00 PM) Baku time

To apply, visit:

http://www.khazar.org/en/menus/496/nece_muraciet_etmeli_sup_style_color_red_yeni_sup_

XƏZƏR UNİVERSİTETİNİN
DÜNYA MƏKTƏBİ

BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

**Ünvan:**

**Bakı, Əcəmi Naxçıvani 9**
**Tel.: (+994 12) 563 59 40 /47 /48**
**Mob.: (+994 70) 844 08 88**

**Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi**
**Tel.: (+994 18) 642 30 97**
**Mob.: (+994 55) 669 96 33**

**E-mail: info@dunyaschool.az**
**http: // dunyaschool.az**

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn